Xalqın qəzeti!

# Xalq qəzeti

№ 105 (31074) 18 iyun 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan böyük məmnunluq duyuram.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi, sülh və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Heytəm bin Tariq Al SƏİD,***
***Omanın Sultanı***

# ABŞ Azərbaycanın Cənubi Qafqazda lider rolunu yüksək dəyərləndirir

## Prezident İlham Əliyev ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvünü qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadeni qəbul edib.**



Prezident İlham Əliyev Donald Trampın ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycan-ABŞ əlaqələrinin uğurla inkişaf etdiyini vurğuladı.

ABŞ Prezidenti ilə şəxsi münasibətlərinin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı Birləşmiş Ştatlara səfərlərini və Donald Trampla görüşlərini, həmçinin Vitse-prezident Cey. Di. Vensin ölkəmizə səfərini məmnunluqla xatırladı, "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasını münasibətlərimizin genişləndirilməsi baxımından tarixi rola malik olduğunu qeyd etdi.

Söhbət zamanı Abraham Hamadenin ABŞ Konqresində Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvi ilə bağlı irəli sürülmüş qanun layihəsinə həmmüəllif olmasının əhəmiyyətinə toxunuldu.

Prezident İlham Əliyev Abraham Hamadenin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi.

Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən qonaq ölkəmizin coğrafi baxımdan çox nadir bir məkanda yerləşdiyini dedi.

O, həmçinin Azərbaycanda UFC və Formula 1 kimi mötəbər idman yarışlarının keçirildiyini də vurğuladı.

Söhbət zamanı Azərbaycan və ABŞ prezidentlərinin strateji tərəfdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərinə toxunularaq, hər iki liderin dövlətlərarası münasibətlərimizin inkişafına böyük önəm verdikləri qeyd olundu.

Donald Trampın Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında rolu xüsusi vurğulandı, regional nəqliyyat bağlantılarının inkişafı baxımından TRIPP dəhlizinin yaradacağı imkanlara toxunuldu.

Görüşdə ölkəmizlə ABŞ Konqresi arasında dialoqun möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, iqtisadi-ticari, sərmayə, enerji, təhlükəsizlik, bağlantılar, texnologiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, Azərbaycan-ABŞ tərəfdaşlığının perspektivləri müzakirə olundu.

## Regional sülh, "3+3" və Rusiyanın Cənubi Qafqaza baxışı




Səhifə ➪ 4

## Vaşinqton–Tehran çərçivə sazişi və regional durum




Səhifə ➪ 5

## BMT-də nüfuz böhranı



Səhifə ➪ 4

## Qisasçı düşərgənin başı üzərində "qara buludlar"



Səhifə ➪ 5

## Azərbaycan dövləti qeyri-neft ixracını fəal dəstəkləyir



Səhifə ➪ 9

## Bakı–Ankara–Tbilisi üçbucağında qoruyucu zireh



Səhifə ➪ 7

## Ölkəmizdə İslam maliyyəsi




Səhifə ➪ 8

# G7-də qlobal təhlükəsizlik müzakirəsi

**Fransada keçirilən G7 sammitinin ikinci günü beynəlxalq siyasi atmosferdə diqqətçəkən məsələlərlə yadda qaldı. ABŞ Prezidenti Donald Tramp də daxil olmaqla, G7 liderləri Ukraynaya hərbi dəstəyin artırılmasını və Rusiyaya qarşı sanksiyaların gücləndirilməsini nəzərdə tutan birgə bəyanatı dəstəkləyiblər.**

"Biz, G7 liderləri, Ukraynanın öz azadlığını, suverenliyini və ərazi bütövlüyünü müdafiə etməsində sarsılmaz dəstəyimizdə vahid mövqedən çıxış edirik," – deyə çərşənbə günü gecəyarısından bir qədər sonra yayımlanan bəyanatda bildirildi. ABŞ Prezidenti Donald Trampın bu mövqeyi və sammit çərçivəsində verilən mesajlar Ukrayna müharibəsi ətrafında formalaşmış sərt ritorikanın yumşaldığı təəssüratı bağışladı. Lakin bu "yumşalma" daha çox şərti siyasi mövqedir.

*(ardı 6-cı səhifədə)*



# Məhəmməd Süleyman Əl-Casirin “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə İslam İnkişaf Bankı arasında əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə Məhəmməd Süleyman Əl-Casir “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 iyun 2026-cı il**

# Azərbaycan Respublikasının səhiyyə işçilərinin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli “Əmək” ordeni ilə**

Cavadov Emin Ağacavad oğlu
Cəmilov Rüfət Rüstəm oğlu
Ələkbərov Cəbrayıl Ələkbər oğlu
Hacıyeva Adilə Sabir qızı
İslamzadə Fuad İslam oğlu
Kosayev Cəmaləddin Vahid oğlu
Nəbiyev Nizami Nəbi oğlu

**“Tərəqqi” medalı ilə**

Abuşov Nəsrəddin Sədrəddin oğlu
Ağayev Elşən Ələm oğlu
Ağayeva Naidə Rüstəm qızı
Əhmədova Çiçək Məmməd qızı
Əlicabarova Ulduz İsrafil qızı
Əliyev Eyub Məmmədrza oğlu
Əliyeva Kifayət Hüseyn qızı
Əlləmova Firəngiz Aşur qızı
Əzimov Nazim Kərim oğlu
Hacıyev Elxan Sərxan oğlu
Hüseynov Sahib Əhməd oğlu
Xasiyev Arif İsfəndiyar oğlu
İbadov Samir Əlixas oğlu
Kazımi Mircəlal Mirkazım oğlu
Qafarova Ellada Bəxtiyar qızı
Qarayeva Yaqut Fəxrəddin qızı
Quliyeva Yeganə Yadulla qızı
Qurbanova Züleyxa Hacıbaba qızı
Mahalov İslam Şərif oğlu
Məmmədova Sevda Faxrət qızı
Muradov Nəsir Şadı oğlu
Seyidova Leyla Miryasin qızı
Şəbiyeva Gülnarə Daməd qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 iyun 2026-cı il**

# Azərbaycanın Baş naziri Daşkənd Forumunda




**İyunun 17-də Özbəkistanın paytaxtında V Daşkənd Beynəlxalq İnvestisiya Forumu açılıb. Azərbaycanın Baş naziri Əli Əsədov Forumun plenar iclasında iştirak edib.**

Tədbirdə çıxış edən Ə.Əsədov vurğulayıb ki, Özbəkistanın investisiya cəlbediciliyinin möhkəmlənməsi öz əksini ölkəyə artan beynəlxalq maraqda tapır və Daşkənd Beynəlxalq İnvestisiya Forumunda iştirakçıların sayının hər il artması bunun parlaq sübutudur.

Baş nazir qeyd edib ki, öz növbəsində, Azərbaycan da bu cür təşəbbüslərə beynəlxalq investisiya əməkdaşlığının gücləndirilməsində vacib alət kimi baxır.

Hökumət başçısı bildirib ki, ötən il Birinci Beynəlxalq İnvestisiya Forumu keçirən Azərbaycan investisiya dialoqu üçün öz beynəlxalq platformasını yaradıb.

Onun sözlərinə görə, Forum investorların, biznes nümayəndələrinin və beynəlxalq maliyyə qurumlarının yüksək səviyyədə marağını nümayiş etdirib. Qeyd edilib ki, bu ilin sentyabr ayında keçiriləcək İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu həmin uğurun məntiqi davamı olacaq.

Ə.Əsədov Azərbaycanın investisiyaların cəlb edilməsi, özəl sektorun inkişafı və investisiya mühitinin yaxşılaşdırılması sahəsindəki təcrübəsini bölüşüb. Vurğulanıb ki, Azərbaycan ardıcıl olaraq iqtisadiyyatın açıqlığı və sahibkarlıq təşəbbüsünün dəstəklənməsi siyasətini həyata keçirir.

Qeyd edilib ki, son iyirmi ildə Azərbaycan iqtisadiyyatına 350 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da təxminən yarısı xarici investisiyaların payına düşür. Ölkədə investorların hüquqlarının etibarlı qorunmasını, investisiya təhlükəsizliyinə zəmanət verilməsini, kapitalın sərbəst hərəkətini və bütün bazar iştirakçıları üçün bərabər şəraitin yaradılmasını təmin edən müasir qanunvericilik bazası formalaşdırılıb.

Azərbaycanın Avrasiyada əsas nəqliyyat yollarının kəsişməsində yerləşən unikal coğrafi mövqeyindən irəli gələn rəqabət üstünlüklərinə xüsusi diqqət yetirilib. Hazırda Azərbaycan müasir nəqliyyat infrastrukturunun, dəniz limanlarının, dəmir yollarının və avtomobil yollarının inkişafına əhəmiyyətli dərəcədə investisiya qoymaqda davam edir, bununla da regional əlaqələrin gücləndirilməsinə və biznes imkanlarının genişləndirilməsinə şərait yaradır.

Baş nazir, həmçinin yaşıl enerji sahəsində əməkdaşlığın yüksək potensialını vurğulayıb. Qeyd edilib ki, Azərbaycan öz qarşısına milli enerji balansında bərpaolunan enerji mənbələrinin payını artırmaq kimi iddialı məqsədlər qoyub. Ölkədə miqyaslı Günəş və külək enerjisi layihələri həyata keçirilir, aparıcı beynəlxalq şirkətlər cəlb edilir və investorlar üçün yeni imkanlar yaradılır.

Ə.Əsədov, həmçinin beynəlxalq investisiya əməkdaşlığının genişləndirilməsinin artan əhəmiyyətini vurğulayıb. Maliyyə resurslarını birləşdirən və strateji əhəmiyyətli layihələrin həyata keçirilməsinə əlverişli şərait yaradan birgə investisiya fondlarının bu sahədə effektiv mexanizm olduğu qeyd edilib. Vurğulanıb ki, Azərbaycan dost dövlətlərlə birgə investisiya platformaları yaratmaq təcrübəsini ardıcıl olaraq inkişaf etdirir.

Xüsusilə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanla birlikdə yaradılmış investisiya fondları bu gün artıq iqtisadi tərəfdaşlığın dərinləşdirilməsinin və perspektivli sektorlara investisiyaların cəlb edilməsinin hərəkətverici vasitəsi kimi xidmət edir.

Baş nazir çıxışının sonunda beynəlxalq investisiya əməkdaşlığının daha da gücləndirilməsinin dayanıqlı inkişaf və milli rifah kimi ortaq məqsədlərə nail olmağa töhfə verəcəyinə əminliyini ifadə edib.

***XQ***

# ABŞ konqresmeni Milli Məclisdə

**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 17-də ölkəmizdə səfərdə olan ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamade ilə görüşüb.**



Görüşdə ABŞ-Azərbaycan münasibətlərinə dair fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, iki ölkə arasında əlaqələr son dövrlərdə yüksək səviyyədə inkişaf edir. Bu münasibətlər qarşılıqlı hörmət, ortaq maraqlar, sülh, təhlükəsizlik və tərəqqiyə xidmət edən əsaslar üzərində qurulub.

Milli Məclisin Sədri Birləşmiş Ştatlar və Prezident Donald Trampın regionumuzda sülhün və sabitliyin dəstəklənməsindəki roluna toxunaraq, bu çərçivədə Vaşinqton sammiti və onun uğurlu nəticələrini qeyd edib. Bildirilib ki, Azərbaycan Milli Məclisində bununla bağlı xüsusi sessiya təşkil olunub.



Milli Məclisin Sədri Prezident İlham Əliyevin Vaşinqtona son səfərlərinin, Azərbaycan dövlət başçısının Prezident Donald Trampla görüşlərinin ikitərəfli əlaqələrin inkişafı baxımından tarixi əhəmiyyətini diqqətə çatdırıb. Həmçinin Vitse-prezident Cey. Di. Vensin ölkəmizə səfəri zamanı “Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası”nın imzalanmasının münasibətlərimizin daha da genişləndirilməsi baxımından mühüm rolu qeyd olunub.

ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamade göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, Azərbaycan parlamentinin spikerini ABŞ Konqresində görmək arzusunu dilə gətirib.

Söhbət zamanı Abraham Hamade ABŞ-Azərbaycan əlaqələrinin əhəmiyyətinə toxunaraq, hazırda münasibətlərin müxtəlif istiqamətlər üzrə inkişafını qeyd edib. O, Azərbaycanın həm coğrafi mövqeyi, həm də beynəlxalq əməkdaşlıqda oynadığı rol baxımından xüsusi əhəmiyyət kəsb edən ölkə olduğunu söyləyib.

Sahibə Qafarova söhbət zamanı Prezident Donald Tramp tərəfindən Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması ilə bağlı memorandumun imzalanmasını yüksək qiymətləndirib, Hamadenin düzəlişin ləğvi ilə bağlı irəli sürülmüş qanun layihəsinin həmmüəllifi olmasının əhəmiyyətini vurğulayıb.

***XQ***

# Əli Əsədov İslam Sivilizasiyası Mərkəzi ilə tanış olub




**Özbəkistan paytaxtında keçirilən V Beynəlxalq İnvestisiya Forumunda iştirak edən Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, həmçinin Belarus, Tacikistan, Qırğızıstanın hökumət başçıları Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olublar.**

Özbəkistanın Baş naziri Abdulla Aripov qonaqlara İslam Sivilizasiyası Mərkəzi haqqında müfəssəl məlumat verib. Qeyd olunub ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Qərarı ilə təsis edilən İslam Sivilizasiyası Mərkəzinin təməli 2018-ci ildə qoyulub. Layihənin həyata keçirilməsində yüzlərlə alim, ekspert, həmçinin dini və ictimai xadim iştirak edib.

Bildirilib ki, Səmərqənd şəhərinin qədim memarlıq abidələri üslubunda hazırlanmış mərkəz 10 hektardan çox ərazini əhatə edir. Buraya tədqiqat, nadir əlyazmaların milli reyestrinin aparılması, əlyazmalar fondu, kitabxana və arxivlər, nəşriyyat şöbələri daxildir. Mərkəzdəki sərgi qalereyasında müxtəlif tarixi dövrlərə aid əşyalar və əsərlər təqdim olunur, əcdadların yaradıcılıq potensialı müasir texnologiyalar və rəqəmsal cihazların köməyi ilə nümayiş etdirilir. Onun muzey ekspozisiyası “İslamdan əvvəl sivilizasiyalar”, “Birinci İntibah dövrü”, “İkinci İntibah dövrü”, “XX əsrdə Özbəkistan”, “Yeni Özbəkistan – Üçüncü İntibahın əsası” və “Müqəddəs Quran” adlı zallardan ibarətdir.

*

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova Özbəkistana işgüzar səfəri çərçivəsində beynəlxalq media layihəsi olan “Bright Uzbekistan” jurnalının xüsusi buraxılışı təqdim edilib.**

Bu barədə Nazirlər Kabinetindən məlumat verilib.

Qeyd olunub ki, jurnalın Azərbaycanla bağlı nəşr edilən 3-cü və 4-cü xüsusi buraxılışları xalqımızın ümummilli lideri Heydər Əliyevin zəngin dövlətçilik irsinə və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkənin əldə etdiyi uğurlara həsr olunub.

# XİN-də xarici siyasətçilərlə görüşlər

**İyunun 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadeylə görüşüb.**



Görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin hazırkı vəziyyəti və inkişaf perspektivləri, regional və beynəlxalq təhlükəsizlik məsələləri, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiya əlaqələri, eləcə də Cənubi Qafqazda postmünaqişə dövründə mövcud vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov ötən ilin avqustunda Vaşinqtonda keçirilmiş Sammitin ikitərəfli və regional əlaqələrdə əhəmiyyətini vurğulayaraq, sammit çərçivəsində əldə olunmuş tarixi razılaşmaların iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə xidmət etdiyini qeyd edib.

Bununla yanaşı, ilk dəfə olaraq Azərbaycan-ABŞ İqtisadi Əməkdaşlıq Dialoqunun keçirildiyi, ticarət, investisiyalar, enerji, nəqliyyat, rəqəmsal inkişaf və digər sahələri əhatə edən 10 əməkdaşlıq sənədinin imzalandığı diqqətə çatdırılıb.

Görüşdə regionda nəqliyyat-kommunikasiya əlaqələrinin gücləndirilməsinə və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantıların yaradılmasına xidmət edəcək TRIPP layihəsinin reallaşdırılmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Görüş zamanı Azərbaycan-ABŞ münasibətlərinin inkişaf perspektivləri müzakirə olunarkən, ikitərəfli əməkdaşlıqda məhdudiyyətlərin aradan qaldırılmasının əhəmiyyəti vurğulanıb. Bu çərçivədə ABŞ-ın Azərbaycana dövlət yardımını məhdudlaşdıran 907-ci düzəlişin tamamilə ləğvinin iki ölkə arasında strateji tərəfdaşlığın ruhuna uyğun olacağı, təhlükəsizlik, enerji, nəqliyyat, iqtisadiyyat və regional sabitlik sahələrində əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyi qeyd edilib. Bildirilib ki, sözügedən düzəliş öz mahiyyətinə görə köhnəlmiş yanaşmanı əks etdirir və mövcud geosiyasi reallıqlar, eləcə də Azərbaycan-ABŞ tərəfdaşlığının səviyyəsi ilə uzlaşmır.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin və ölkəmizin Mərkəzi Asiya Məşvərət Görüşünə tamhüquqlu üzv qəbul edilməsinin strateji əhəmiyyəti vurğulanaraq, C6 formatında əməkdaşlıq üçün geniş imkanların mövcud olduğu qeyd edilib.

Söhbət zamanı Azərbaycan-Ermənistan normallaşma prosesi də müzakirə olunub. Nazir Azərbaycan-Ermənistan normallaşma prosesi, işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri barədə qarşı tərəfə ətraflı məlumat verib.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Koreyanın xarici işlər nazirinin müavini Çonq Eui-haenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüş zamanı Azərbaycan-Koreya münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, siyasi dialoq, iqtisadiyyat, ticarət, investisiyalar, rəqəmsal inkişaf, təhsil, nəqliyyat, enerji təhlükəsizliyi və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov ölkələrimiz arasında münasibətlərin inkişaf dinamikasını məmnunluqla qeyd edib. O, Azərbaycanın həyata keçirdiyi genişmiqyaslı infrastruktur layihələrinin, eləcə də ölkəmizin Avropa ilə Asiyanı birləşdirən əsas regional nəqliyyat və logistika marşrutlarında oynadığı rolun beynəlxalq əməkdaşlıq üçün yeni imkanlar yaratdığını vurğulayıb. Bu çərçivədə Orta Dəhlizin əhəmiyyəti, tranzit və bağlantı imkanlarının genişləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verilib.

Tərəflər çoxtərəfli platformalarda əməkdaşlıq məsələlərini də müzakirə ediblər.

Tərəflər rəqəmsal transformasiya, innovasiya və yüksək texnologiyalar sahəsində əməkdaşlıq imkanlarını müzakirə edib, bu istiqamətlərdə təcrübə mübadiləsinin və birgə layihələrin əhəmiyyətini qeyd ediblər. Təhsil sahəsində əməkdaşlığın, akademik mübadilə proqramlarının və insan kapitalının inkişafına yönəlmiş təşəbbüslərin perspektivləri nəzərdən keçirilib.

Görüş zamanı enerji sahəsində əməkdaşlıq məsələləri, xüsusilə enerji təhlükəsizliyi, bərpaolunan enerji mənbələrinin inkişafı və yaşıl keçid istiqamətində həyata keçirilən layihələr ətrafında fikir mübadiləsi aparılıb.

Həmin gün Azərbaycan Respublikası və Koreya Respublikası Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib. Nümayəndə heyətlərinə Azərbaycan tərəfindən nazir müavini Elnur Məmmədov, Koreya tərəfindən isə xarici işlər nazirinin müavini Çonq Eui-hae başçılıq edib.

***XQ***

# Ağdərə şəhərində Əlaqələndirmə Qərargahının növbəti iclası












**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə iyunun 17-də Ağdərə şəhərində Qərargahın növbəti iclası keçirilib.**

İclasda çıxış edən Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin ölkənin hərtərəfli inkişafının əsasını təşkil etdiyini bildirib. O vurğulayıb ki, son dövrlərdə müxtəlif sahələr, o cümlədən kənd təsərrüfatı üzrə qəbul edilən strateji sənədlər, dövlət proqramları və həyata keçirilən islahatlar ölkənin sosial-iqtisadi inkişafının vahid yanaşma əsasında təmin olunduğunu bir daha təsdiqləyir.

Qərargah rəhbəri vurğulayıb ki, Böyük Qayıdış prosesi milli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi, sosial və institusional sisteminə tam inteqrasiyasını nəzərdə tutur. Ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində zəruri infrastruktur qurulub. Hazırda əsas prioritet yaradılmış infrastruktur bazası üzərində dayanıqlı iqtisadi inkişafın təmin olunması, məskunlaşmanın iqtisadi və sosial dayaqlarının gücləndirilməsidir.

Qeyd olunub ki, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası yekunlaşmaq üzrədir və hazırda Böyük Qayıdışa dair II Dövlət Proqramının hazırlanması istiqamətində intensiv iş aparılır.

Samir Nuriyev işğaldan azad edilmiş ərazilərin aqrar potensialının Böyük Qayıdış prosesinin iqtisadi dayanıqlılığının təmin edilməsində mühüm rol oynadığını diqqətə çatdırıb. Onun sözlərinə görə, torpaq və su ehtiyatlarından səmərəli istifadə, aqrar istehsalın genişləndirilməsi, istehsal və emal imkanlarının yaradılması, eləcə də kənd təsərrüfatı sahəsində dayanıqlı məşğulluğun təmin olunması qarşıdakı dövrün əsas vəzifələrindəndir. Bu baxımdan “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı” çərçivəsində nəzərdə tutulan tədbirlərin Böyük Qayıdış üzrə həyata keçirilən fəaliyyətlərlə əlaqələndirilməsi vacibdir.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma əhalinin məşğulluğunun təmin edilməsindən, iş yerlərinin yaradılmasından və iqtisadi fəaliyyət imkanlarının genişləndirilməsindən asılıdır. Bu baxımdan kənd təsərrüfatı da daxil olmaqla, müxtəlif sahələrdə məşğulluq imkanlarının artırılması, peşə bacarıqlarının inkişaf etdirilməsi, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi və iqtisadi fəallığın yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi xüsusi əhəmiyyət daşıyır.





İclasda, həmçinin ekoloji dayanıqlılığın təmin edilməsi və su ehtiyatlarının idarə olunması məsələlərinə toxunulub. Bildirilib ki, təbii ehtiyatlardan səmərəli istifadə, ekosistemlərin bərpası və torpaq ehtiyatlarının qorunması uzunmüddətli inkişafın mühüm şərtlərindəndir. İşğaldan azad edilmiş ərazilərdə su təsərrüfatı obyektlərinin bərpası ilə yanaşı, su ehtiyatlarının müasir səviyyədə və qənaətli idarə olunması, müxtəlif sahələrin suya olan tələbatının balanslı şəkildə ödənilməsi və ölkənin su təhlükəsizliyinin möhkəmləndirilməsi qarşıda duran əsas vəzifələr sırasındadır.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadə və aqrar istehsalın təşkili, əhalinin məşğulluğunun təmin edilməsi, ekoloji dayanıqlılığın gücləndirilməsi və su ehtiyatlarının idarə olunması istiqamətində görülən işlər barədə məruzələr dinlənilib.

İclasın yekununda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji hədəflərə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi sosial-iqtisadi inkişaf prosesinə inteqrasiyasının sürətləndirilməsinin, Böyük Qayıdış prosesinin dayanıqlılığının təmin olunmasının və əhalinin rifahının yüksəldilməsi istiqamətində fəaliyyətin ardıcıl şəkildə davam etdirilməsinin vacibliyi bir daha iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Sonra iclas iştirakçıları Ağdərə şəhərinin Baş planı ilə tanış olublar. Onlara şəhərin inkişaf perspektivləri və nəzərdə tutulan layihələr barədə məlumat verilib.

Eyni zamanda, Ağdərə və Xocalı rayonlarında həyata keçirilən aqrar və sənaye layihələrinə baxış keçirilib.

Səfər çərçivəsində Ağdərə rayonunun Çaylı kəndində “Frutti Aqro” MMC tərəfindən salınmış intensiv meyvə bağında və “Dəmirli” Filiz Emalı Kompleksində görülən işlər və layihələrin bölgənin sosial-iqtisadi inkişafına töhfəsi barədə məlumatlar təqdim olunub.

Daha sonra Xocalı rayonunun Daşbulaq kəndində yerləşən tut bağına və baramaçılığın inkişafı üçün yaradılmış infrastruktura baxış keçirilib. Həmçinin Xanabad kəndi ərazisində fəaliyyət göstərən “Qoç Ət” Kəndli Fermer Təsərrüfatı MMC-nin heyvandarlıq kompleksi, eləcə də müxtəlif özəl təsərrüfat subyektləri tərəfindən salınmış intensiv meyvə bağları ilə tanışlıq olub.

Məlumatlandırma zamanı bildirilib ki, aqrar və sənaye sahələrində həyata keçirilən layihələr işğaldan azad olunmuş ərazilərdə iqtisadi fəallığın genişlənməsinə, yeni iş yerlərinin yaradılmasına, sahibkarlığın inkişafına və Böyük Qayıdış prosesinin iqtisadi dayaqlarının möhkəmləndirilməsinə xidmət edir.

***XQ***

# “Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu”

*Yeni Azərbaycan Partiyası bu mövzuda Şuşada beynəlxalq konfrans təşkil edib*

**Xəbər verildiyi kimi, 15 İyun Milli Qurtuluş Günündə Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Şuşa şəhərində “Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu” mövzusunda beynəlxalq konfrans keçirilib.**

Məclisin əvvəlində Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin konfrans iştirakçılarına müraciətini səsləndirib.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qonaqları salamlayaraq bildirib ki, artıq 5-ci ildir şəhərimizdə keçirilən belə məclislər Milli Qurtuluş Gününə və eləcə də, 2021-ci ildə Azərbaycanla Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsinin ildönümünə həsr olunur. İşğaldan azad olunmasından keçən müddət ərzində Şuşa şəhəri, eləcə də bütün Qarabağ və Şərqi Zəngəzur hər gün dəyişərək yenidən qurulur, görünməmiş dərəcədə sürətlə dirçəlir.

**“Sülh quruculuğu mexanizmləri: qlobal çağırışlar fonunda partiya diplomatiyası”** mövzusunda I panel sessiyada çıxış edən moderator, Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, 2022-ci ildən etibarən Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Milli Qurtuluş Gününə və Şuşa Bəyannaməsinin ildönümünə həsr olunan tədbirlərin bu şəhərdə keçirilməsi xüsusi mənəvi, siyasi və ideoloji məna daşıyır: “2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqımızın həmrəyliyi və Azərbaycan Ordusunun şücaəti sayəsində hərbi-siyasi əsarətdən azad olunan Şuşa yalnız Azərbaycanın deyil, türk və islam dünyasının mədəniyyət mərkəzlərindən biri kimi bəşər sivilizasiyasının qiymətli xəzinəsidir”.





Tahir Budaqov daha sonra qeyd edib ki, konfransın mövzusu müasir beynəlxalq münasibətlər sisteminin son dərəcədə aktual məsələlərini özündə ehtiva edir: “Dünyanın mürəkkəb geosiyasi transformasiyalar dövrünü yaşadığı bir zamanda regional sabitlik, təhlükəsizlik və əməkdaşlıq məsələləri beynəlxalq siyasi gündəliyin mərkəzində dayanır. Bu xüsusda Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət daha ədalətli dünya nizamının bərqərar olmasına istiqamətlənmişdir. Bu gün Şuşadan verilən mesajlar yalnız Cənubi Qafqaza deyil, bütün dünyaya ünvanlanır”.

Türkmənistanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Qurbanmammet Elyasov, Sahibkarlar və İş Adamları Hərəkatı – Özbəkistan Liberal Demokratik Partiyası Siyasi Şurası İcra Komitəsinin sədri, partiyanın parlament fraksiyasının sədri Aktam Xaitov, Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsi Xarici Əlaqələr Komitəsinin Tədqiqat və çoxtərəfli əlaqələr departamentinin baş direktoru Sayavonq Bounyadet, Moldova Respublikası Parlamentinin üzvü Pavel Voyku Azərbaycan dövlətinin regionda sülh və dünyada nizamla bağlı təşəbbüslərini yüksək dəyərləndirdilər.

**“Regional layihələr və transsərhəd əməkdaşlıq: dayanıqlı sülhün iqtisadi əsasları”** mövzusunda II panel sessiyada moderator, Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım qeyd edib ki, bu gün sülhün qorunması və sabitliyin gücləndirilməsi artıq yalnız dövlətlərin apardığı klassik diplomatiya fəaliyyətləri ilə mümkün deyildir: “Parlamentlərin, siyasi partiyaların, akademik dairələrin, media qurumlarının və vətəndaş cəmiyyətlərinin də bu proseslərdə fəal rol oynaması zəruridir”.

Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey, Kamboca Xalq Partiyası Mərkəzi Komitəsi Daimi Komitəsinin üzvü, Kamboca Krallığı Senatının ikinci vitse-prezidenti Tun Vathana, Ukrayna Ali Radasının Humanitar və informasiya siyasəti komitəsinin sədri, ATƏT Parlament Assambleyasında Ukrayna nümayəndə heyətinin rəhbəri Mikita Poturayev, Pakistanın MUSLİM İnstitutunun İctimaiyyətlə əlaqələr üzrə məsul şəxsi və xüsusi nümayəndəsi Malik Asif Tanver dayanıqlı sülhün iqtisaddi əsasları ilə bağlı mülahizələrini söyləyiblər.

**“Postmünaqişə dövründə yenidənqurma: şəhərsalma sahəsində müasir çağırışlar”** mövzusunda 3-cü panel sessiyada moderator, Belarusun “Belaya Rus” Partiyasının sədri Olqa Çemodanova vurğulayıb ki, Milli Qurtuluş Günündən başlanan uğurlu siyasət nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirmiş, dost dövlətlərlə əməkdaşlığını ardıcıl şəkildə genişləndirmişdir.

Tacikistan Xalq Demokratik Partiyasının sədr müavini Umeda Abdullozoda, Şimali Makedoniya Türk Demokratik Partiyasının sədri Zülfikar Zeynula, Serbiya Tərəqqipərvər Partiyası İdarə Heyətinin üzvü, Serbiya Milli Assambleyasının üzvü Daniela Nikoliç, “Gürcü Arzusu – Demokratik Gürcüstan” partiyasının Gənclər Təşkilatının sədri, Gürcüstan parlamentinin üzvü Varlam Liparteliani postmünaqişə dövrünün quruculuq təcrübəsindən danışmışlar.

Konfrans iştirakçıları Şuşa şəhərinin tarixi məkanları, aparılan tikinti və yenidənqurma və Laçın rayonunda həyata keçirilmiş bərpa-quruculuq işləri ilə tanış olublar.

***XQ***

# BMT-də nüfuz böhranı

*XXI əsrdə qlobal təhlükəsizlik sistemi niyə təsirsizdir?*

**I yazı**

XX əsrin dağıdıcı faciəsi olan İkinci Dünya müharibəsinin ardından yaradılan BMT beynəlxalq sistemin əsas sütunu kimi nəzərdə tutulmuşdu. Onun missiyası sadə, lakin iddialı idi: müharibələrin qarşısını almaq, dövlətlər arasında sülhü qorumaq, kollektiv təhlükəsizlik mexanizmini işlək vəziyyətdə saxlamaq və beynəlxalq hüququn aliliyini təmin etmək. 1945-ci ildə San-Fransisko Konfransında qəbul edilən BMT Nizamnaməsi dövlətlərin suverenliyi, güc tətbiqindən imtina və mübahisələrin dinc yolla həlli prinsiplərini beynəlxalq nizamın əsasları kimi müəyyənləşdirdi.

Lakin XXI əsrin geosiyasi reallıqları göstərir ki, beynəlxalq sistemin institusional arxitekturası qlobal güc balansının dəyişməsi ilə ayaqlaşa bilmir. Bu gün əsas problem BMT-nin mövcudluğu deyil, onun qərarlarının siyasi və hüquqi effektivliyidir. BMT Nizamnaməsinin VII fəsli Təhlükəsizlik Şurasına beynəlxalq sülh və təhlükəsizliyin qorunması məqsədilə geniş səlahiyyətlər verir. Bu səlahiyyətlərə beynəlxalq sülhə təhdidin müəyyən edilməsi, məcburetmə xarakterli iqtisadi və diplomatik sanksiyaların tətbiqi, silah embarqolarının elan olunması, sülhməramlı əməliyyatların təsdiqlənməsi və zərurət yarandıqda kollektiv hərbi tədbirlərə icazə verilməsi daxildir. Hüquqi baxımdan bu mexanizm BMT-ni beynəlxalq sistemdə ən geniş mandatlı təhlükəsizlik institutu statusuna yüksəldir.

## Hüquqi böhran və Azərbaycan nümunəsi

Lakin son onilliklərin təcrübəsi göstərir ki, hüquqi səlahiyyətlərin mövcudluğu onların praktikada effektiv şəkildə həyata keçirilməsi anlamına gəlmir. Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yalnız siyasi konsensus şəraitində işlək olur. Böyük dövlətlər arasında fikir ayrılığı yarandıqda isə BMT-nin kollektiv təhlükəsizlik mexanizmi, faktiki olaraq, fəaliyyət qabiliyyətini itirir.

Bu problemin ən uzunmüddətli nümunələrindən biri Azərbaycan olmuşdur. Birinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi Ermənistan silahlı qüvvələrinin nəzarəti altına keçdi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası ardıcıl olaraq 822, 853, 874 və 884 saylı qətnamələri qəbul edərək işğal olunmuş ərazilərdən Ermənistan qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Qətnamələrdə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı açıq şəkildə təsdiqlənirdi. Bununla belə, həmin sənədlərin qəbulundan sonra uzun illər ərzində onların icrası istiqamətində effektiv beynəlxalq mexanizm işə salınmadı. Təhlükəsizlik Şurası qətnamələrin yerinə yetirilməməsinə görə əlavə məcburetmə tədbirlərinə əl atmadı, sanksiyalar tətbiq edilmədi və qərarların icrasına nəzarət edəcək praktik mexanizm formalaşdırılmadı. Nəticədə, Təhlükəsizlik Şurasının məcburi xarakter daşıyan qərarları uzun illər icra edilmədi.



Mövcud vəziyyət beynəlxalq hüququn tətbiqində ciddi ziddiyyəti üzə çıxardı. Bir tərəfdən BMT Azərbaycanın ərazi bütövlüyünü və işğal faktını hüquqi baxımdan tanıyırdı, digər tərəfdən isə həmin hüquqi mövqenin həyata keçirilməsi üçün zəruri institusional addımlar atılmırdı.

2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan özünün beynəlxalq səviyyədə tanınmış ərazilərinin böyük hissəsi üzərində nəzarəti bərpa etdi, 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirlərindən sonra isə ölkənin bütün suveren ərazisində konstitusiya quruluşu tam təmin olundu. Həmin proseslər nəticəsində 1993-cü ildə qəbul edilmiş BMT Təhlükəsizlik Şurası qətnamələrində əks olunmuş prinsiplər faktiki olaraq həyata keçirildi. Lakin bu, BMT-nin kollektiv təhlükəsizlik mexanizmi vasitəsilə deyil, regionda yaranmış yeni siyasi və hərbi reallıqlar fonunda baş verdi.

Azərbaycan nümunəsi göstərdi ki, Təhlükəsizlik Şurasının hüquqi qərarlarının mövcudluğu onların avtomatik icrası demək deyil. Qətnamələrin qəbul edilməsi ilə onların həyata keçirilməsi arasında bəzən onilliklərlə ölçülən boşluq yaranır. Bütün bunlar beynəlxalq hüququn legitimliyindən daha çox, onun icra mexanizmlərinin effektivliyi barədə suallar doğurur. Oxşar vəziyyət sonradan digər münaqişələrdə də müşahidə olundu. Suriyada 2011-ci ildən başlayan və milyonlarla insanın həyatına təsir göstərən müharibə zamanı Təhlükəsizlik Şurası humanitar dəhlizlərin yaradılması, atəşkəsin təmin olunması və münaqişənin siyasi həlli ilə bağlı vahid mövqe formalaşdıra bilmədi. Müxtəlif illərdə təqdim edilən qətnamə layihələri daimi üzvlərin veto hüququndan istifadə etməsi səbəbindən qəbul edilmədi.

## İşğalçı veto qoyursa…

Oxşar vəziyyət Ukrayna ətrafında da müşahidə edildi. 2014-cü ildə Krımın ilhaqı, daha sonra isə 2022-ci ildən başlayan genişmiqyaslı müharibə fonunda Təhlükəsizlik Şurası beynəlxalq hüququn pozulmasına dair prinsipial qərarlar qəbul etmək imkanından məhrum oldu. Bunun əsas səbəbi münaqişə tərəflərindən birinin eyni zamanda Təhlükəsizlik Şurasının veto hüququna malik daimi üzvü olması idi. Belə şəraitdə BMT Nizamnaməsinin nəzərdə tutduğu kollektiv təhlükəsizlik mexanizmi hüquqi baxımdan mövcud olsa da, siyasi baxımdan işləmədi.

Qəzza zolağında baş verən hadisələr də analoji mənzərəni ortaya qoyur. Humanitar atəşkəs, mülki əhalinin müdafiəsi və beynəlxalq humanitar hüququn təmin olunması ilə bağlı müxtəlif qətnamə layihələri uzun müddət Təhlükəsizlik Şurasında razılaşdırıla bilmədi. Ayrı-ayrı dövlətlərin veto hüququndan istifadə etməsi səbəbindən BMT-nin qərar qəbul etmə prosesi dalana dirəndi. Problem yalnız qərarların qəbul edilməməsində deyil. Qəbul edilmiş qətnamələrin icrası da ciddi çətinliklərlə üzləşir. BMT-nin özünün hərbi qüvvəsi yoxdur. Təşkilatın sülhməramlı əməliyyatları üzv dövlətlərin könüllü şəkildə ayırdığı şəxsi heyət və texniki resurslar hesabına formalaşdırılır. Eyni zamanda, iqtisadi sanksiyaların effektivliyi də dövlətlərin həmin qərarlara nə dərəcədə əməl etməsindən asılıdır. Bu isə o deməkdir ki, BMT qərar qəbul etsə belə, onların icrası dövlətlərin siyasi iradəsindən asılı qalır.

Məhz buna görə son illər beynəlxalq hüquq üzrə mütəxəssislər getdikcə daha çox "icra böhranı" anlayışından istifadə edirlər. Problemin mahiyyəti hüquqi normaların tətbiqini təmin edəcək effektiv mexanizmlərin məhdudluğudur. BMT beynəlxalq hüququn əsas normativ platforması olaraq qalır, lakin bu normaların pozulması hallarında onların icrasını məcburi şəkildə təmin etmək imkanları kifayət qədər deyil.

Mövcud reallıq onu göstərir ki, kollektiv təhlükəsizlik sistemi artıq əvvəlki kimi universal mexanizm funksiyasını yerinə yetirə bilmir. Münaqişələrin həllində getdikcə daha çox regional təşkilatlar, koalisiya formatları, vasitəçi dövlətlər və çoxtərəfli diplomatik platformalar ön plana çıxır. BMT isə bir çox hallarda proseslərin hüquqi və humanitar müşayiətçisi rolunda çıxış edir.

## Təhlükəsizlik Şurasında qərarsızlıq

BMT-nin beynəlxalq təhlükəsizlik sistemində qarşılaşdığı ən ciddi institusional problemlərdən biri Təhlükəsizlik Şurasının qərar qəbuletmə mexanizmidir. Təşkilatın Nizamnaməsinə əsasən, ABŞ, Rusiya, Çin, Böyük Britaniya və Fransa daimi üzv statusuna malik olmaqla yanaşı, veto hüququna da sahibdirlər. Bu mexanizm İkinci Dünya müharibəsindən sonra böyük dövlətlərin təşkilatda iştirakını təmin etmək və onların razılığı olmadan qlobal təhlükəsizlik məsələləri üzrə qərarların qəbul edilməsinin qarşısını almaq məqsədilə yaradılmışdı. Lakin XXI əsrdə eyni mexanizm getdikcə beynəlxalq təhlükəsizlik sisteminin əsas institusional məhdudiyyətlərindən birinə çevrilib.

BMT Nizamnaməsinin 27-ci maddəsinə əsasən, Təhlükəsizlik Şurasının substantiv məsələlər üzrə qərarlarının qəbul edilməsi üçün daimi üzvlərin heç birinin əleyhinə səs verməməsi tələb olunur. Praktikada isə bu o deməkdir ki, beş daimi üzvdən hər hansı biri təkbaşına beynəlxalq sülh və təhlükəsizliklə bağlı istənilən qərarın qəbulunu dayandıra bilir.



BMT-nin rəsmi məlumatlarına görə, 1946-cı ildən etibarən Təhlükəsizlik Şurasında veto hüququndan 300 dəfədən çox istifadə olunub. Tarixən ən çox vetodan SSRİ və onun hüquqi varisi olan Rusiya Federasiyası istifadə edib. "Soyuq müharibə"dən sonrakı dövrdə isə veto daha çox geosiyasi maraqların qorunması alətinə çevrilib. Bunun ən bariz nümunələri Suriya, Ukrayna və Qəzza ilə bağlı müzakirələrdir. Bu münaqişələr üzrə təqdim olunan bir sıra qətnamə layihələri daimi üzvlərin veto hüququndan istifadə etməsi və ya siyasi razılığın əldə olunmaması səbəbindən qəbul edilmədi.

Birinci Qarabağ müharibəsindən sonra qəbul edilmiş, lakin uzun illər icra olunmayan Təhlükəsizlik Şurasının qətnamələri, Suriya, Ukrayna və Qəzza ətrafında yaşanan hadisələr göstərir ki, beynəlxalq hüququn mövcudluğu onun avtomatik tətbiq olunacağı anlamına gəlmir. Hüquqi qərarlar siyasi iradə ilə dəstəklənmədikcə, onların icrası uzun müddət kağız üzərində qalır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Regional sülh, "3+3" və Rusiyanın Cənubi Qafqaza baxışı

*Durum əvvəl necə idi, indi nə haldadır?*

**"Bu mühüm regionda sülhün və əməkdaşlığın möhkəmlənməsinə ölkələrimizin regional əməkdaşlıq platforması olan "3+3" formatında iştirakının davam etdirilməsi kömək edəcək". Bu fikirləri Rusiyanın xarici işlər naziri Sergey Lavrov türkiyəli həmkarı Hakan Fidanla Moskvada keçirdiyi görüşdən sonra səsləndirib.**




Bəli, Lavrovun fikirləri Azərbaycanın və Türkiyənin təşəbbüsü ilə 2021-ci ildə yaradılmış "3+3" regional məşvərət formatının əhəmiyyətini önə çəkir. Məlumat üçün bildirək ki, bu format çərçivəsində indiyədək Azərbaycanın, Türkiyənin, Rusiyanın, İranın və Ermənistanın XİN başçıları arasında 3 görüş (2021-ci ildə Moskvada, 2023-cü ildə Tehranda, 2024-cü ildə İstanbulda) reallaşıb. Adları çəkilən ölkələrlə yanaşı, məvcud platformada Gürcüstana da yer ayrılıb ki, rəsmi Tbilisi 2008-ci ilin rus işğalına görə burada təmsilçilikdən uzaq durur. Halbuki qurumun hər toplantısında ölkə üçün qapıların açıq olduğu vurğulanır. Yeri gəlmişkən, bu məqam Lavrov-Fidan təmasından sonra da açıqlandı.

Qeyd edək ki, "3+3" yaradılanda 44 günlük müharibə bitmiş, Qarabağda rus qoşunları yerləşdirilmişdi. Həmin vaxt Azərbaycan-Ermənistan normallaşmasında təşəbbüs Rusiyanın əlində olsa da, Qərb mövcud istiqamətdə müəyyən tədbirlər gerçəkləşdirirdi və bu tədbirlər nəticəsini verdi. 2023-cü ilin əvvəllərində Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan tərəfində Avropa İttifaqının hələ də varlığını sürdürən mülki müşahidə missiyası yerləşdiriləndə isə platformanın əhəmiyyəti daha da artdı. Bakı, Ankara, Tehran və Moskva qətiləşdirdilər: region region ölkələri üçündür.

Ümumən, "3+3"ün mahiyyətini regionda kənar qüvvələrin olmaması fəlsəfəsi təşkil edir. Bir neçə il əvvələ qədər isə Ermənistanın bu platformada təmsilçiliyi fəal deyildi. Rəsmi İrəvan daha çox İrana görə formatın toplantılarına qatılırdı. Həmin vaxt İrəvan Tehranı özünə real sipər sayır, ikinci isə, Moskva kimi, istəmirdi ki, regionda kənar oyunçular görünsün. Bu məqamda Rusiya və İranın mövqeyi Azərbaycanın və Türkiyənin mövqeyi ilə uzlaşırdı. Nəzərə alaq ki, ölkəmiz də Aİ-nin Ermənistandakı missiyasına qarşı idi və yenə də eyni mövqedədir. O missiya ki, onun kənar qüvvə ampluası İrana da sərf etmir.

"Əmmən", "3+3" odur ki, Rusiya vaxtilə Cənubi Qafqaz baxımından son dərəcə vacib olan Azərbaycan-Ermənistan sülhünün yaradılmasına yönələn fəaliyyəti "3+3"dən kənarda təsvir edib. Ancaq 2023-cü ildə Azərbaycanın Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən, bölgədəki separatçı rejimin məhvindən, ölkəmizin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsindən, həmçinin rus sülhməramlılarının Qarabağdan çıxmasından sonra Kreml fərqli davranışa üstünlük vermək məcburiyyətində qaldı.

Məsələn, Lavrov 2025-ci il mayın 21-də İrəvan səfəri zamanı regional əməkdaşlıq üzrə "3+3" formatının potensialını vurğulamış və bildirmişdi ki, bu format region ölkələri arasında təhlükəsizliyin və dayanıqlı sülhün möhkəmləndirilməsi, eləcə də tərəfdaşlıq münasibətlərinin inkişafı üçün mühüm dayağa çevrilə bilər. O, bundan əvvəl, yəni 2024-cü ilin oktyabrında demişdi ki, Rusiya, Türkiyə və İran Azərbaycana və Ermənistana sülh müqaviləsi üzərində işi yekunlaşdırmaq üçün "3+3" platformasından istifadəni təklif ediblər: "Biz (Rusiya), türkiyəli və iranlı tərəfdaşlarımızla birlikdə İrəvan və Bakıdakı tərəfdaşlarımıza sülh müqaviləsi üzərində işi başa çatdırmaq üçün "3+3" platformasından istifadəni təklif etdik". Daha bir "əmma" isə budur ki, S.Lavrovun timsalında rəsmi Moskva həmişə Bakı-İrəvan sülhü baxımından Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında 2020-2022-ci illərdə keçirilmiş üçtərəfli görüşləri xatırladıb. Bu xatırlatmada Kremlin sülhü, bir növ, inhisara götürmək məramı duyulub. Rusiyada həmişə əsaslandırmağa çalışıblar ki, üçtərəfli görüşlər Cənubi Qafqazda sülh üçün baza rolunu oynayır. Halbuki Moskvanın həmin görüşlərin gündəliyinə Qarabağ amilini qatmaq istədiyi məlumdur. O amil ki, özündə münaqişə məntiqini saxlayır. Təsadüfi deyil ki, vaxtilə rəsmi Moskva Qarabağın artıq gorbagor olmuş statusu məsələsi ilə bağlı müzakirəni sonraya saxlamağı təklif etmişdi.

Ümumən, Rusiyanın Bakı-İrəvan münasibətlərində vasitəçilik ampluası Ermənistan rəhbərliyini razı salmayıb. Daha doğrusu, ölkənin arxasında dayanan Qərbi. Qərb deyəndə 2022-ci ildən sonra Azərbaycan-Ermənistan vasitəçiliyində təşəbbüsü ələ almış Avropa İttifaqını nəzərdə tuturuq. Yada salaq ki, qurumun sülh təşəbbüsləri Fransanın aşkar ermənipərəstliyi səbəbindən iflasa uğradı. Ermənistanın vasitəçiliklə bağlı anti-Rusiya köklənişi, Azərbaycanın isə Fransa səbəbindən Aİ təşəbbüslərinə etimad göstərməməsi Bakı və İrəvan arasında sülh danışıqlarını dalana dirədi. O da məlumdur ki, ABŞ-ın yeni Donald Tramp administrasiyası məhz belə bir durumda hərəkətə keçdi. Bu hərəkətin nəticəsində ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan XİN rəhbərləri sülh müqaviləsini parafladılar, habelə, hər iki ölkənin liderləri Prezident Trampın şahidliyi ilə Birgə Bəyannamə imzaladılar. Bu sənəd Azərbaycan-Ermənistan münasibətlərində yeni mərhələnin əsasını qoydu. O mərhələ ki, hazırkı pozitiv perspektiv məhz onun nailiyyətidir.

***

Bəli, Cənubi Qafqazın indiki sülh perspektivində Rusiyaya yer yoxdur. Ölkənin Ermənistanda parlament seçkiləri xüsusunda "Qarabağ kartı"nı işə salmaq cəhdi də fikrimizin sübutudur. Amma Moskvanın Cənubi Qafqaz siyasi platformasına aidiyyətini danmaq olmaz. Yaqin buna görədir ki, H.Fidanın Moskvaya səfər gündəliyində Cənubi Qafqazdakı durumun müzakirəsi yer alınışdı.

Ermənistandakı parlament seçkilərindən sonra regionun həyatında yeni səhifənin açıldığı bildirilir. Baş nazir Nikol Paşinyanın "Mülki müqavilə" partiyasının seçkilərdə qalib gəlməsi hay hakim komandasının legitimliyini yeniləyib. Deməli, İrəvanın kritik qərarlar qəbul etmək imkanları əvvəlkindən daha genişdir. Mövcud durumun Rusiyada hansı reaksiyalar doğuracağı isə maraqlıdır. Rusiya Ermənistan seçkilərinin nəticələrinə etiraz edir. Ehtimal etmək mümkündür ki, Moskva belə bir etiraz fonunda Cənubi Qafqaz müstəvisindəki yeniliklərə qarşı demarş mövqe tutacaq. Şübhəsiz, bu, əlavə gərginlik deməkdir. O gərginlik ki, Türkiyəyə sərf etmir. Cənab Fidan da Moskvada ölkəsinin prinsipial mövqeyini xatırladıb. Ələqəz, mövcud durumda Rusiyaya Türkiyənin təminatı lazımdır. Ən böyük təminat mexanizmi isə "3+3"-dür. Lavrovun təbirincə desək, bu mühüm regionda sülhün və əməkdaşlığın möhkəmlənməsinə ölkələrimizin regional əməkdaşlıq platforması olan "3+3" formatında iştirakının davam etdirilməsi kömək edəcəksə, Moskvanın vəziyyətə reallığın şərtlərinə uyğun yanaşması lazımdır. Əlbəttə ki, bu platformanın fəlsəfəsinin qorunması da önəmlidir.

"3+3"ün fəlsəfəsi isə diqqətə çatdırdıq – region region ölkələri üçündür. Bu deyim həm də o anlamı daşıyır ki, Cənubi Qafqazda kommunikasiyaların açılması, qarşılıqlı ticarət əlaqələrinin möhkəmlənməsi, habelə, ümumən, regionun logistik imkanlarının dəyərləndirilməsi ancaq iqtisadi məramа köklənir və bu, əslа kənar qüvvələrin mövcud platformadakı siyasi və hərbi mövcudluğu kimi başa düşülməməlidir.

Sözümüz ondadır ki, Ermənistan cəbhəsində növbəti məğlubiyyətlə, həttа siyasi fiasko ilə üzləşmiş Rusiya bir dövlət olaraq Cənubi Qafqazda bərabərtərəfli münasibətlərin qurulmasına, region xalqlarının rifahına və əmin-amanlıq şəraitində yaşamasına hesablanmış perspektivi özünün ənənəvi baxış stereotiplərinə, jandarm missiyasına qurban verməmk istəməsə, normal regional əməkdaşlıq düzənində təmsilçiliklə razılaşsa, yaxşıdır. Əslində, onun razılaşmaqdan başqa çarəsi yoxdur. Hər halda, rəsmi Moskva İrəvana desant çıxarıb hakimiyyəti dəyişdirmək kimi sərsəmləmələrə qulaq verəcək deyil. Qulaq veriləcək, daha doğrusu, üzərində dayanılacaq ən mühüm platforma isə "3+3"dür. Ümid edək ki, H.Fidanın Moskva səfərindən sonra Kremldə bu platformanın əhəmiyyəti daha yaxşı dərk ediləcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Vaşinqton–Tehran çərçivə sazişi və regional durum

## *Hörmüz boğazının statusu qlobal təhlükəsizliyin mərkəzi elementinə çevrilib*

**Vaşinqton və Tehran arasında elektron formatda rəsmiləşdirilmiş 14 maddəlik memorandum layihəsi qlobal siyasi nizamın yenidən formalaşmasını nümayiş etdirən mühüm sənəddir. ABŞ Prezidenti Donald Tramp, vitse-prezident Ceyms Devid Vens və İranın əsas danışıqlar nümayəndəsi Məhəmməd Baqir Qalibaf tərəfindən elektron qaydada təsdiqlənmiş sənəd hərbi qarşıdurmanın dərhal dayandırılması istiqamətində atılmış diplomatik addımdır.**




Sənədin tam şəkildə ictimaiyyətə açıqlanmamasına baxmayaraq, tərəflərin verdiyi ilkin bəyanatlar diplomatik proseslərin fasiləsiz davam etdirilməsi məqsədini daşıyır. Əldə edilmiş memorandumun BMT Təhlükəsizlik Şurasının mütləq qətnaməsi vasitəsilə təsdiqlənməsi nəzərdə tutulur. TŞ-nın qətnaməsi sənədə beynəlxalq hüquqi status verərək tərəflərin öhdəlikləri pozmaq imkanlarını minimuma endirəcək.

Memorandum iki dövlət arasında mövcud hərbi təhdidləri neytrallaşdırmaq və nüvə proqramı ətrafında toplanmış ziddiyyətləri həll etmək üçün 60 günlük xüsusi danışıqlar mərhələsinə keçidi təmin edir. Bu zaman çərçivəsi intensiv diplomatik təmasların qurulması, tərəflərin maraqlarının uzlaşdırılması üçün rasional müddətdir. Xüsusilə vurğulanmalıdır ki, müzakirə dövründə Tehranın nüvə fəaliyyətləri və Vaşinqtonun tətbiq etdiyi sanksiyalar rejimi hər hansı dəyişikliyə məruz qalmadan tam dondurulmuş vəziyyətdə saxlanılacaq. Bu isə tərəflərə əlavə təzyiqlərdən uzaq, sabit şəraitdə masaya oturmaq imkanı verir. Razılaşmanın icrasına tam nəzarət etmək məqsədilə xüsusi mexanizm fəaliyyətə başlayacaq.

*

Hörmüz boğazının cümə gününə qədər tamamilə açılması beynəlxalq təhlükəsizlik arxitekturasının vacib elementidir. Memorandum regionda hərbi gərginliyin azalmasına xidmət edəcək. Məsələyə strateji prizmadan yanaşdıqda aydın olur ki, elektron imza formatı ənənəvi diplomatiyadan fərqli çevik yanaşmanın mövcudluğunu göstərir. Tərəflər arasındakı inamsızlıq fonunda dərhal işə düşən texnoloji həllər tətbiq olunur. İlkin səsləndirilən fikirlər gələcək nizamın konturlarını kifayət qədər aydınlaşdırır. Mərkəzi hədəf məhz atəşkəsin təmin edilməsi, münaqişə zolaqlarının tamamilə dondurulmasıdır.

Zənginləşdirilmiş uran ehtiyatlarının idarə olunması isə müasir təhlükəsizlik sahəsində ən mürəkkəb sferadır. Donald Tramp bəyan edib ki, İranın zərbə endirilmiş obyektlərində basdırıldığı iddia edilən uran materialı sökülüb ləğv edilməlidir. ABŞ lideri prosesin dərhal, xaotik həyata keçirilməsinə lüzum görmür, çünki əsas missiya materialın fiziki olaraq ələ keçirilməsi yox, yeraltı sığınacaqlarda məhv edilməsidir. Trampın qənaətinə görə, ABŞ-ın lazımi qədər zənginləşdirilmiş ehtiyatı mövcuddur. Həmin amil Vaşinqtonun məsələyə proaktiv təhlükəsizlik prizmasından yanaşdığını göstərir. ABŞ tərəfi materialı hərbi və ya sənaye məqsədilə Vaşinqtona daşımaq niyyətində deyil. Əsas hədəf potensial təhlükə mənbəyinin radikal şəkildə ortadan qaldırılmasıdır.

İran xarici işlər nazirinin müavini Məcid Taxt-Rəvançinin bəyanatları sənədin əhatə dairəsinin geniş olduğunu təsdiqləyir. Diplomat vurğulayır ki, təsdiqlənmiş 14 maddəlik memorandumda Livan ərazisindəki mümkün atəşkəs pozuntularına qarşı daimi təsirə malik xüsusi tənzimləmələr yer alır. Sənəddə ümumi hərbi xətlərdə sükunətin təmin olunmasını tələb edən müddəalar var. Qayda pozuntusu baş verdiyi təqdirdə, diplomatik təminatçılar müvafiq rıçaqları işə salaraq hərbi eskalasiyanı durduracaqlar. Taxt-Rəvançi qeyd edir ki, Vaşinqton müttəfiqləri adından sülh zəmanəti verib. Vensin də təsdiqləndiyi kimi, razılaşma Livan, İsrail və Körfəz ölkələrini daimi sülhə riayət etməyə məcbur edir. Qurulmuş arxitektura göstərir ki, Vaşinqton Təl-Əvivin hərbi əməliyyatlarını dayandırmalı, Tehran isə himayəsindəki qruplaşmaların fəaliyyətinə qadağa qoymalıdır.

*

Livan parlamentinin sədri Nəbih Berri və İran parlamentinin sədri Məhəmməd Baqir Qalibaf arasındakı məsləhətləşmələr yaranmış siyasi paktın əməli müstəvidə reallaşdırılması cəhdidir. Söhbət əsnasında Livan əleyhinə yönəlmiş quru və hava əməliyyatlarının təcili durdurulması barədə razılıq əldə edilib. Qalibaf və Berri qeyd ediblər ki, sənədin təminatçısı qismində Vaşinqton mütləq şəkildə İsrail ordusunun genişmiqyaslı əməliyyatlarına son qoymalıdır. Livanın mülki infrastrukturunun dağıdılmasının davam etməsi yolverilməzdir. Ərazi bütövlüyü və suverenlik prinsiplərinə şərtsiz hörmət edilməsi memorandumun təməl tələbidir. İşğal edilmiş torpaqlardan xarici qüvvələrin dərhal təxliyəsi sənədin icra indikatoru hesab olunur. Nəbih Berri açıq mətnlə Qalibafa diplomatik proseslərdəki tənzimləyici rolu münasibətilə təşəkkür edərək əməkdaşlığı müsbət qiymətləndirib.

Türkiyənin xarici işlər naziri Hakan Fidan situasiyanı olduqca mürəkkəb, lakin ümidverici siyasi çərçivədə təhlil edib. Nazirin yanaşması strukturlaşdırılmış nizamı hədəf alır. Ankara təmsilçisinin fikrincə, memorandum davamlı, qalıcı təhlükəsizlik arxitekturasının yaradılmasına kömək etməlidir. Türkiyənin regional xarici siyasət xətti daim uzunmüddətli sabitliyə yönəlib. H.Fidan xüsusi vurğulayıb ki, Ankara kompleks cəbhələrdə sistemli arxitekturanın tərəfdarıdır. Fasilələrlə baş verən hərbi toqquşmalar regional nizamsızlığın bitməməsinə gətirib çıxarır. Mütləq sülh mühiti isə daimi nizam formalaşdırır. Xarici işlər nazirinin fikirlərində Hörmüz boğazının statusu fərqləndirilir. Su yolunun sərbəst keçid üçün açıq saxlanılması sırf siyasi sabitlik baxımından həyati önəm daşıyır.

İsraildə siyasi iqlim mürəkkəb paradiqmalarla əhatələnib. Livanın suverenliyini qorumaq məsələsi memorandumun təməl şərtlərindəndir. Tehran idarəçiləri Təl-Əvivin son hərbi manevrlərini sülh prosesini pozmağa yönəlmiş məqsədyönlü strategiya kimi qiymətləndirir. Həmin dəyərləndirmə Vaşinqton qarşısında ciddi imperativlər qoyur. Donald Tramp diplomatik vasitəçilər üzərindən İrana təcili ismarıc göndərərək, Beyrut hücumlarına qarşı hərbi cavab verilməməsini xahiş edib. Məqsəd Benyamin Netanyahunun münaqişəni regional səviyyədə genişləndirmək taktikasını dondurmaqdır. Ağ ev rəhbəri məxfi, həmçinin açıq kanallarla prosesləri, militarist iddiaları məhdudlaşdırmağa çalışır. Mülki vətəndaşların, yaşayış məntəqələrinin hədəfə alınması qlobal siyasi arenada Amerikanın müttəfiqlik imicinə də ağır zərbə vurur. Tramp alternativ, dinc diplomatik həllərin mövcudluğunu rəsmi İsrailə qətiyyətlə xatırladır. Görünən mənzərə ondan ibarətdir ki, Vaşinqtonun regional strategiyası Təl-Əvivin davamlı hərbi ambisiyaları ilə kökündən ziddiyyət təşkil edir.

Netanyahunun mövqeyi daxili arenada da böhranlı vəziyyət yaradıb. Sabiq hökumət başçısı Ehud Olmert çox sərt tezislər səsləndirib. Olmert hesab edir ki, əldə olunmuş 14 maddəlik memorandumun şərtləri İsrail radikalları tərəfindən qəti xəyanət aktı kimi qiymətləndiriləcək. Belə reaksiyanın yeganə səbəbkarı məhz Netanyahunun keçmiş dövrlərdə ictimaiyyətə aşıladığı maksimalist vədlərdir. Sabiq baş nazir incə paradoksa toxunur: “Netanyahu heç vaxt Donald Trampın əleyhinə açıq çıxış edib məlum terminləri istifadə edə bilməz, çünki ölkənin müdafiə sənayesi vasitəsiz ABŞ dəstəyindən asılıdır”. Olmert yaranmış beynəlxalq fürsətdən bəhrələnərək Livanla daimi sülhün labüdlüyünü xüsusi olaraq qabardır. Faktlar göstərir ki, İsrail ordusunun Livanın cənub zolağına daxil olmasına zərrə qədər hərbi ehtiyac yoxdur. İşğal edilmiş zonalardan tam geri çəkilmək dövlətin təməl təhlükəsizliyinə qətiyyən zərər gətirməz.

*

Belə çoxvektorlu böhran mühitində Azərbaycan respublikasının regional sülh diplomatiyasındakı rolu xüsusi vurğulanmalıdır. Rəsmi Bakı uzaqgörən, konstruktiv siyasət yürüdərək prosesin iştirakçısı olan müxtəlif dövlətlərlə mükəmməl əlaqələr saxlayır. Azərbaycan həm Qərb, həm də Yaxın Şərq dövlətləri ilə balanslı, faydalı əməkdaşlıq mexanizmi formalaşdırıb. Sülhün mütləq tərəfdarı kimi çıxış edən Bakı münaqişə tərəfləri arasında qütbləşmənin aradan qaldırılmasına kömək edən etibarlı platforma təqdim edir. Yaranmış geosiyasi proseslərdə Azərbaycanın nümayiş etdirdiyi qərəzsiz mövqe liderlər tərəfindən rəğbətlə izlənilir. Ölkəmizin xarici siyasət konsepsiyası ətraf dövlətlərin suveren hüquqlarının, ərazi bütövlüyünün mütləq tanınması prinsiplərinə dayanır.

Beləliklə, BMT Təhlükəsizlik Şurası vasitəsilə təsdiqlənəcək saziş qlobal hüququn funksionallıq qazanmasını təmin edəcək. Sanksiyaların və nüvə obyektlərinin dondurulması ilə müşayiət olunan 60 günlük passiv faza diplomatik ünsiyyət vasitəsilə həlledici konsensusun yaranmasına zəmin hazırlayır. Strukturlaşdırılmış xüsusi nəzarət mexanizmi tərəflər arasındakı inamsızlıq mühitini mərhələli şəkildə neytrallaşdırılacaq. ABŞ və İranın xarici siyasət kurslarının toqquşma nöqtəsindən ortaq saziş müstəvisinə yönəlməsi Yaxın Şərqin taleyüklü siyasi tranformasiyasını labüd edir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Qisasçı düşərgənin başı üzərində “qara buludlar”

## Koçaryanın həbsi üçün hüquqi addımlar atılır

**Ermənistanın Baş naziri Nikol Paşinyan seçki kampaniyası zamanı və səsvermədən sonra etdiyi çıxışlarda seçki saxtakarlığına, seçici rüşvətinə və digər qanunsuz əməllərə qarşı sərt tədbirlər görüləcəyini bildirmiş, belə hallara yol verənlərin siyasi statusundan asılı olmayaraq hüquq-mühafizə orqanları qarşısında cavab verəcəklərini vurğulamışdı. Məsələn, seçkiqabağı görüşlərinin birində “keçmiş Qarabağ fəalı” kimi təqdim edilən Artur Osipyan Paşinyanla mübahisə etmişdi. Nikol isə həm ona, həm də ümumiyyətlə, revanşist kəsimi təmsil edən şəxslərə müraciətlə demişdi: “Rədd olun, cəhənnəm olun burdan, talançılar. Sən niyə sağsan? Sən kimsən? Osipyan, sən axı kimsən ki, mən səni tanımalıyam? Səsiniz-səmiriniz çıxmasın, sizin kökünüzü kəsəcəyik, kökünüzü... Sənin burada, İrəvanda nə işin var? Siz demirdinizmi mən sərhədi bağlamışam ki, gəlməyəsiz?..”.**

İyunun 8-də isə Paşinyan parlamentdə erməni xalqını seçkilərdə qalib gəldikləri üçün təbrik etdikdən sonra bildirmişdi: “İyunun 7-də erməni xalqı öz səsi ilə dövlətə, müstəqilliyə, gələcəyə, sülhə və Ermənistana sahib çıxdı. “Üçbaşlı müharibə partiyası” darmadağın edildi. Onların kökü Ermənistandan qazılıb çıxarılmalıdır və bu, hökumətin ən vacib gündəlik məsələlərindən biri olacaq. Biz bunu gecikdirmədən, çox qətiyyətli və konkret addımlarla həyata keçirməliyik”. Daha sonra isə Ermənistan Baş naziri müxalifət liderlərini nəzərdə tutaraq, “üçbaşlı mafiya Ermənistanı tərk etmək imkanı əldə etməyi arzulayacaq, lakin belə bir imkanları olmayacaq” bəyanatı ilə çıxış etmişdi. Digər bəyanatı zamanı isə Paşinyan bildirmişdi ki, seçki rüşvətində ittiham olunan müxalifət nümayəndələri gələcək siyasi fəaliyyət imkanlarından məhrum edilməlidirlər.

Ümumiyyətlə, seçki prosesi zamanı yol verilən qanunsuzluq halları ilə bağlı hələ daha əvvəldən məlumatlar var idi. Ölkənin Korrupsiyaya Qarşı Mübarizə Komitəsi seçki rüşvəti ittihamı üzrə “Güclü Ermənistan” blokunun tərəfdarları arasında yeni həbslər aparıldığı barədə məlumat yaymışdı. İstintaqa görə, blokun tərəfdarlarından biri Lori bölgəsində sakinlərə kirayə xərclərinin ödənilməsi üçün nağd pul paylanılmasını təşkil edib. May ayının əvvəllərində isə hüquq-mühafizə orqanları blok nümayəndələrini rüşvət təklif etmək, seçicilərə vədlər vermək və xeyriyyəçilik qaydalarını pozmaqda ittiham edən materiallar dərc edirdilər. Artıq bir nəfər barəsində həbs-qətimkan tədbiri seçilib.

*

Ermənistan Baş Prokurorluğunun son günlərdə atdığı bir sıra addımlar Paşinyanın yuxarıda qeyd etdiyimiz vədləri praktik müstəviyə keçirməyə başladığını göstərir. Dünən yayılan xəbərdə bildirilir ki, Baş Prokurorluq R.Koçaryanın cinayət məsu-



liyyətinə cəlb olunmasına razılıq verilməsi ilə bağlı Mərkəzi Seçki Komissiyasına təqdimat göndərib və onun toxunulmazlığı ləğv edilib. Məlumatı “Armenia Today” nəşrinə Baş Prokurorluq da təsdiqləyib. Qurum müraciətin hansı cinayət işi ilə əlaqədar olduğunu açıqlamayıb. Bildirilir ki, Koçaryan parlament seçkilərində deputatlığa namizəd olduğu üçün qanunvericiliyə əsasən toxunulmazlıq statusuna malikdir. MSK-nın məlumatına görə, Baş Prokurorluq “Ermənistan” blokundan deputatlığa namizədlər Asatur Koçaryan və Ruslan Barseqyana qarşı azadlıqdan məhrumetmə ilə bağlı qətimkan tədbirinin seçilməsinə razılıq verilməsi üçün də müraciət edib.

R.Koçaryanın ofisinin rəhbəri Baqrat Mikoyan mediada yayılan xəbərləri təsdiqləyərək sabiq prezidentin ölkədən çıxış



hüququnun məhdudlaşdırıldığını bildirib. Onun sözlərinə görə, Koçaryan əvvəlcədən planlaşdırdığı qısamüddətli xarici səfəri həyata keçirmək istəsə də, səbəbi izah edilmədən ölkəni tərk etməsinə qadağa qoyulub.

Bu arada Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Komitəsi seçicilərin rüşvətlə ələ alınması ilə bağlı yeni faktlar müəyyən etdiyini açıqlayıb. “Armenpress”in komitəyə istinadən yaydığı məlumata görə, həyata keçirilən əməliyyat-istintaq tədbirləri nəticəsində “Çiçəklənən Ermənistan” partiyası nümayəndələrinin Lori vilayətinin Spitak icmasına daxil olan Qoqaran icmasında və ətraf yaşayış məntəqələrində bir sıra seçicilərə rüşvət verdiklərinə dair faktiki məlumatlar əldə olunub. Seçicilərə parlament seçkilərində həmin partiyaya səs vermələri və digər tərəfdarların cəlb edilməsinə kömək göstərmələri şərti ilə pul vəsaiti təklif edilib. Hadisə ilə bağlı Korrupsiyaya Qarşı Mübarizə Komitəsində cinayət işi başlanıb, bir neçə şəxs barəsində həbs qətimkan tədbiri seçilib və zəruri prosessual hərəkətlər həyata keçirilib.

Dünən, həmçinin Ermənistan MSK Baş Prokurorluğun təqdimatı əsasında S.Karapetyanın tərəfdarı, onun yaratdığı “Güclü Ermənistan” partiyasından deputatlığa namizəd David Kazinyanın toxunulmazlıq hüququnu ləğv edib. Kazinyan vaxtilə Karapetyana məxsus “Ermənistan Elektrik Şəbəkələri” şirkətinin baş direktoru vəzifəsində çalışıb. Kazinyan da parlament seçkiləri ərəfəsində seçicilərə rüşvət verməkdə ittiham olunur. Daha əvvəl S.Karapetyanın bir neçə tərəfdarı da seçki rüşvəti vermə maddələri ilə həbs edilib.

Hərçənd qarşı tərəf bu ittihamları qəbul etmir və onu “tamamilə absurd” adlandırır. “Böyük ehtimalla, o, yaxın vaxtlarda saxlanılacaq, daha sonra isə barəsində həbs qətimkan tədbiri seçiləcək”, – deyə Kazinyanın vəkili Aram Vardevanyan jurnalistlərə bildirib.

*

Bütün bunlar onu göstərir ki, qarşıdakı dövr müxalifət üçün heç də asan keçməyəcək. Baş verənlərə yalnız seçki pozuntularına qarşı hüquqi mübarizə kimi baxmaq kifayət deyil. Ermənistanda formalaşan yeni siyasi vəziyyət göstərir ki, Paşinyan seçkilərdə qazandığı qələbəni sadəcə növbəti hakimiyyət dövrünün başlanğıcı kimi deyil, həm də ölkənin siyasi səhnəsini yenidən formalaşdırmaq üçün fürsət hesab edir. Seçki kampaniyası zamanı işlədilən sərt ifadələr, “üçbaşlı müharibə partiyası”, “üçbaşlı mafiya” kimi ittihamlar və indi bunun ardınca gələn hüquqi proseslər həmin xəttin davamı təsiri bağışlayır.

Diqqətçəkən məqam odur ki, istintaq və cinayət təqibi tədbirləri əsasən parlamentə düşə bilmiş və ya ciddi siyasi təsir imkanlarını qoruyan qüvvələrin nümayəndələrini əhatə edir. Koçaryanın rəhbərlik etdiyi blok, Karapetyanın siyasi komandası, eləcə də “Çiçəklənən Ermənistan” ətrafında aparılan araşdırmalar faktiki olaraq müxalif düşərgənin əsas hissəsini hədəfə alır. Bu isə Ermənistanda seçkilərdən sonrakı siyasi mübarizənin yeni mərhələyə keçdiyini göstərir. Maraqlıdır ki, Paşinyanın komandasından səslənən son bəyanatlar da qarşıdurmanın yaxın vaxtlarda səngiməyəcəyini göstərir. Hakim partiyanın deputatı Artur Ovannisyanın “Milli Assambleyada müxalifəti sərt siyasi reallıq gözləyir, onları siyasi mənada məhv edəcəyik” açıqlaması seçkilərin başa çatmasına baxmayaraq, siyasi savaşın davam etdiyini nümayiş etdirir. Bu, artıq seçki kampaniyasının ritorikası deyil, yeni parlament dövrünə verilən siyasi mesajdır.

Belə görünür ki, qarşıdakı aylarda Ermənistan gündəmi iqtisadi və sosial problemlərdən daha çox hakimiyyət-müxalifət qarşıdurması ilə zəngin olacaq. Bir tərəf seçkilərdə əldə etdiyi üstünlüyü möhkəmləndirməyə çalışacaq, digər tərəf isə baş verənləri siyasi təqib kimi təqdim edərək öz elektoratını ətrafında saxlamağa cəhd göstərəcək. Bu mübarizənin nəticəsi yalnız ayrı-ayrı siyasətçilərin taleyini deyil, həm də Ermənistanın yaxın illərdəki siyasi mənzərəsini müəyyənləşdirəcək.

***Səxavət HƏMİD***
***XQ***

# Aİ-nin Ermənistana ticarət güzəşti

## *Brüssel Moskvanın idxal məhdudiyyətlərinə cavab hazırlayır*



**Belə bir planın mövcudluğu barədə nüfuzlu "Financial Times" qəzeti məqalə dərc edib. Nəşrin istinad etdiyi, planla tanış olan dörd mənbəyinin məlumatlarına əsasən, Avropa Komissiyası Ermənistanın ərzaq və kənd təsərrüfatı məhsullarının ixracına gömrük rüsumlarını azaldacaq muxtar ticarət tədbirləri hazırlayır. Brüssel hesab edir ki, bu təşəbbüs Ermənistan hökumətinə təzyiq göstərmək məqsədi daşıyan, parlament ərəfəsində Rusiyanın idxal məhdudiyyətlərinə, bir növ, cavabdır.**



Nəşrin etibarlı mənbəyinin açıqlamasından: "İndi erməniləri gücləndirmək və dəstəkləmək və etibarlı tərəfdaş ola biləcəyimizi göstərmək vaxtıdır. Onların dostlara ehtiyacı var, biz isə qonşuluğumuzu qorumalıyıq". İki mənbənin qənaətincə, Avropa İttifaqına (Aİ) üzv dövlətlərin əksəriyyətinin və Avropa Parlamentinin təsdiqini tələb edən tədbirlər Rusiyanın qadağasına düşən təxminən 20 kateqoriya üzrə mal və məhsulların əksəriyyətini əhatə edəcək. Bu məhsulların Avropa bazarlarına ixracından Ermənistan ildə təxminən 420 milyon avro qazanacaq.

### "Qara siyahı"ya düşən məhsullar...

Üç gün bundan əvvəl Aİ xarici işlər nazirləri Lüksemburqda Ermənistanın baş diplomatı ilə bu məsələni hərtərəfli müzakirə ediblər. Bunu Avrokomissiyanın rəsmi təmsilçisi Olaf Gill "Financial Times"a açıqlamasında bildirib. Onun sözlərinə görə, komissiya daha çox erməni biznesinə Avropa bazarlarına daxil olmaq imkanını və ölkə iqtisadiyyatının ən çox zərbə dəyən sahələrinin bərpasına dəstək vermək üçün alternativ ticarət tədbirləri təklif edəcək: "Ermənistan Rusiyanın dominantlıq etdiyi Gömrük İttifaqının bir hissəsidir və bu, Moskvaya ölkənin idxalı və ixracı üzərində nəzarət şansını verir. Bu isə Aİ-nin İrəvanla güzəştli ticarət sövdələşməsini təmin etmək cəhdlərini bir qədər çətinləşdirir".

Yada salaq ki, Ermənistanda parlament seçkiləri ərəfəsində Rusiya fitosanitar problemlərini əsas gətirərək erməni güllərinin idxalına müxtəlif qadağalar tətbiq etdi. Tezliklə bu "qara siyahıya" mineral su, şərab və konyak, meyvə-tərəvəz və balıq məhsulları da əlavə olundu. Məqsəd məlum idi. Amma bütün bu təzyiqlərə baxmayaraq, baş nazir Nikol Paşinyanın partiyası seçkilərdə qalib gəldi.

### Aİ və Moskvanın regionda rəqabəti kəskinləşir

Avropa İttifaqı Ermənistan respublikasının gələcək taleyinə təsir etmək üçün Brüssel və Moskva arasında rəqabətin güclənməsi fonunda Rusiyanın idxal məhdudiyyətlərini kompensasiya etmək üçün İrəvana təcili ticarət güzəştləri paketi hazırlayır. "Financial Times" iyunun 17-də dörd mənbəyinə istinadən xəbər verir ki, Avropa Komissiyası Ermənistanın istehsal etdiyi ərzaq və kənd təsərrüfatı məhsullarına tarifləri aşağı salacaq avtonom ticarət tədbirlər planı üzərində işi başa çatdırmaq üzrədir. Aydın məsələdir ki, bu təşəbbüs Ermənistanda keçirilən son parlament seçkilərindən əvvəl Rusiyanın erməni mal və məhsullarının idxalına tətbiq etdiyi sanitar məhdudiyyətlərə cavab sayılmaldır. Brüsseldə də belə düşünürlər ki, Moskvanın meyvə-tərəvəz qadağası İrəvanın qərbyönlü hökumətinə təzyiq göstərmək məqsədi daşıyırdı. "İndi onları dəstəkləmək və etibarlı tərəfdaş ola biləcəyimizi sübuta yetirməyin vaxtıdır". Nəşr Aİ-dəki özəl mənbəyinə istinadla belə yazıb.

### Yeni bazarlar, alternativ variantlar

Daha sonra qəzetin məqaləsində qeyd olunur ki, Brüsseldəki iki mənbə tərəfindən verilən məlumatlar onu deməyə əsas verir ki, güzəştli ticarət planı ilə bağlı konkret təkliflər yaxın həftələr ərzində Aİ-yə təqdim edilə bilər. Yeri gəlmişkən, Avropa İttifaqının genişlənmə üzrə komissarı Marta Kosun iyulun əvvəllərində Ermənistana planlaşdırılan səfəri zamanı məhz adıkeçən planın detallarının müzakirə ediləcəyi deyilir. Bununla bağlı Avrokomissiyanın sözçüsü Olof Gill nəşrə açıqlamasında onu da bildirib ki, qurum erməni sahibkarlara məhsullarını Avropa bazarlarında realizəsi üçün imkanlar yaratmaq istiqamətində əməli işlər görməyə hazırdır. Bu zaman Gill hay iş adamları üçün muxtar ticarət tədbirlərinin həyata keçiriləcəyini, onlara alternativ variantların təklif edəcəyini də vurğulayıb.

Bəs Aİ-nin məlum təşəbbüsü müstəqil erməni ekspertləri, sahənin mütəxəssisləri tərəfindən necə qarşılanıb? Onlardan birinin Avropanın ticarət planına reaksiyası ilə oxucuları tanış edirik. İrəvanda müstəqil və nüfuzlu beyin mərkəzi kimi tanınan Regional Araşdırmalar Mərkəzinin təsisçisi Riçard Çiraqosyanın bu yöndə fikirləri maraq doğurur: "Avropa İttifaqının 50 milyon avro həcmində tədbirlər planı gül və digər malların alınması üçün olduqca vacib vasitə sayılmalıdır. Bu addım gözlənildiyindən də tez atıldı. Həm də Rusiyanın məlum qadağa siyasətinin faydasız və əks-məhsuldar olduğunu göstərdi. Aİ hazırda Ermənistan məhsullarının Avropaya ixrac təşviqini daha da inkişaf etdirmək istəyirsə, lap yaxşı".

### Moskvanın "məhdudlaşdırıcı tədbirləri" fayda verməyəcək

Bununla bağlı fikirlərini davam etdirən R.Çiraqosyan, eyni zamanda, xəbərdarlıq edib ki, Rusiyanın Ermənistanın ticarət dövriyyəsində oynadığı rolun miqyası qarşısında Aİ-nin təklif etdiyi tədbirlər planı yalnız "müvəqqəti və ya məhdud çərçivədə" olacağı anlamına gəlir: "Bu plan Rusiyanın üstünlüyünü kompensasiya etmək üçün kifayət deyil. Bu səbəbdən Avrokomissiyanın təşəbbüsünü daha çox yardım aksiyası kimi qəbul etmək doğru olar".

"Rusiyanın Ermənistandan bəzi ərzaq məhsullarının idxalına tətbiq etdiyi məhdudiyyətlər siyasi səbəblərlə deyil, məhsullarda aşkar edilmiş pozuntularla əlaqədardır". Bu sözləri "Rosselxoznadzor"un rəhbəri Sergey Dankvert "Rossiyskaya qazeta"ya müsahibəsində deyib. O bildirib ki, məsələ siyasi müstəvidə deyil, uzun illər ərzində müəssisələrarası aparılan işin nəticələri, laborator araşdırmalar və qeydə alınan pozuntularla bağlıdır: "Bizim müəssisələrlə əməkdaşlıq tariximiz, laborator tədqiqatların nəticələri, tədarüklər və aşkar edilmiş pozuntular barədə ətraflı, dəqiq məlumatlarımız var".

Rusiyalı məmur ixraca qadağanın səbəbini yalnız bu müstəvidə izah edə bilərdi. Amma o, qarşıdan gələn və ölkəsi üçün naqolay durumu da göz önünə almalı, rəsmi Moskva isə Ermənistanın yeni bazar axtarışında Avropaya üz tutmasını normal qəbul etməlidir. Bu zaman Rusiya Cənubi Qafqaz ölkələrinin ondan asılılıq amillərinin getdikcə tamamilə aradan qaldırılması perspektivini də nəzərə almağa məcburdur. Dənizə çıxışı olmayan Ermənistanın mal və məhsullarının Türkiyə və ya Gürcüstan vasitəsilə Avropaya daşınması reallığını da həmçinin.

***İ.HƏSƏNQALA***
***XQ***

# Avropa İttifaqı, yoxsa birinci və ikinci dərəcəli xalqlar birliyi?

## *Şalva Papuaşvilinin üzərində dayandığı məqamlar barədə*

**Gürcü iqtidarı nümayəndələri Avropa İttifaqı əleyhinə fikirlərini tirajlamaqda davam edirlər. Dünən ölkə Parlamentinin sədri Şalva Papuaşvili, bir müddət əvvəl isə Baş nazir İrakli Kobaxidze. Əlbəttə, hər iki liderin dediklərində böyük həqiqət payı var. Ona görə ki, onlar Avropa ailəsi fəlsəfəsinin yarıtmazlığını əsaslandırır, ümumən, Aİ sistemindəki çatları qabardırlar.**




Bəli, ötən ay Gürcüstanın Baş naziri İ.Kobaxidze Avropa strukturlarının rəhbərlərinə – Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayenə, Avropa İttifaqı Şurasının Prezidenti Antoniu Koştaya və Avropa Parlamentinin rəhbəri Roberta Metsolaya açıq məktub ünvanlamışdı. Cənab Kobaxidze Qərbin dəyərlər böhranı mövzusunda yazılmış siyasi-fəlsəfi publisistika ovqatını daşıyan məktubunda Brüsselin ikili standartlarından və Tbilisiyə təzyiq cəhdlərindən əl çəkməli olduğunu, obrazlı desək, öz gözündə tiri görməyənlərin, başqasının gözündə çöp axtarmalarının yolverilməzliyini vurğulamışdı.

Baş nazir, eyni zamanda, bildirmişdi ki, mədəni, tarixi və dəyərlər baxımından Gürcüstan Avropa məkanının bir hissəsi, habelə, Aİ üzvlüyə namizəd ölkədir və Avropa ailəsinin tamhüquqlu üzvünə çevrilməyə çalışır: "Təəssüf ki, Avropa bürokratiyasının Gürcüstana münasibətdə qəbul etdiyi qərar nəticəsində, sizin təşəbbüsünüzlə ölkəmizlə siyasi dialoq birtərəfli qaydada dayandırılıb, bundan sonra isə bizim təklif etdiyimiz müzakirə və əməkdaşlıq formatları dəfələrlə rədd edilib".

"Bizim xalq üçün Avropa, ilk növbədə, dəyərlər məkanı, əcdadlarımızın xristian əxlaqına, azadlığa, bərabərliyə, insan hüquqlarına hörmətə və demokratik prinsiplərə əsaslanan sivilizasiya seçimidir. Bizim üçün Avropa İttifaqı ümum-Avropa sivilizasiya məkanıdır, hansısa konkret siyasi xadimə, Avropa liderinə və ya avrobürokrata deyil, Avropa xalqlarına, o cümlədən gürcü xalqına məxsus birlikdir", - deyən İ.Kobaxidzenin Danimarkanın paytaxtı Kopenhagendə törədilmiş zorakılıq hallarına nəzərən üzərində dayandığı və sual şəklində açıqladığı daha bir maraqlı məqam var: "Avropa İttifaqının cəmiyyətin təbii, mədəni və tarixi əsaslarını tez-tez görməzdən gəlməsi kədərli və narahatedicidir. Belə təsəvvür yaranır ki, Avropa məkanı onu bütün dünyada demokratiya və insan hüquqlarının müdafiəsi simvoluna çevirən prinsiplərdən tədricən uzaqlaşır. Avropa ölkəsi və Avropa İttifaqına namizəd dövlət olan Gürcüstan sizdən aydın cavab gözləyir. Avropa İttifaqının planı nədir? Birlik daxilində hadisələr hansı istiqamətdə inkişaf edir? Təkcə bizim deyil, digər Avropa ölkələrinin əhalisinin və siyasi liderlərinin də barəsində açıq şəkildə danışdığı bu narahatedici proseslərin sonu nə olacaq?"

*

İ.Kobaxidzenin tonunu davam etdirən Ş.Papuaşvili ölkələrin hüquqi baxımdan fərqləndirilməsi ideyasını şərh edərkən bildirib ki, Aİ həmişə bütün üzvlərin vahid qaydalar qarşısında bərabərliyini nəzərdə tutan layihə olub və Brüsselin hazırkı yanaşması qurumun təməl prinsipini kökündən dəyişir, onu bərabərhüquqlu dövlətlər ittifaqından "birinci dərəcəli" və "ikinci dərəcəli" xalqların birliyinə çevirir. "Avropa İttifaqının genişlənmə məsələləri üzrə komissarı Marta Kos qeyd etdi ki, qurumda gələcək üzvlərin hazırkı üzv dövlətlərlə eyni səsvermə hüququna malik olmamasını nəzərdə tutan ideya müzakirə olunur. Bu isə o deməkdir ki, Aİ-yə daxil olduqdan sonra Gürcüstan, eləcə də digər yeni üzvlər ittifaqın qalan üzvləri kimi eyni öhdəlikləri daşıyacaq, lakin hüquqlar baxımından onlarla bərabər olmayacaqlar. Praktikada bu, Avropa İttifaqının Gürcüstanın milli maraqları üçün mühüm əhəmiyyət daşıyan məsələlər üzrə qərarları Gürcüstanın iştirakı olmadan qəbul edə bilməsi deməkdir".

Fikirlərini sosial şəbəkə hesabında bölüşən cənab Papuaşvili onu da vurğulayıb ki, M.Kosun fikirləri Brüsselin tez-tez təkrarladığı "Ukrayna ilə bağlı heç bir qərar Ukraynasız qəbul edilməməlidir" ifadəsi ilə tərs mütənasibdir. "Avropa İttifaqında müzakirə olunan ideya, faktiki olaraq, bu yanaşmadan təkcə Ukraynaya deyil, bütün namizəd ölkələrə münasibətdə imtina edilməsini nəzərdə tutur. Ukraynalılar da bunu aydın şəkildə görərək ikinci dərəcəli üzv statusu ilə razılaşmayacaqlarını bəyan ediblər. Bu cür tendensiyalar onu göstərir ki, Avropa İttifaqının "müxtəliflikdə birlik" şüarı getdikcə "baş xəttdən kənara çıxma" prinsipi ilə əvəzlənir. Bu isə o deməkdir ki, kluba yalnız səsin dekorativ funksiya daşıyacağı halda qəbul ediləcəksən. Həqiqətən, belə yanaşma qərarların qəbulunu daha da asanlaşdıracaq – mürəkkəb müzakirələrə, fərqli mövqelərə və alternativ fikrin mövcudluğunu nəzərdə tutan demokratiya elementlərinə ehtiyac qalmayacaq", – deyə Gürcüstan Parlamentinin sədri əlavə edib.

Ş.Papuaşvili diqqəti Aİ-nin Gürcüstanın dörd il əvvəl üzvlük üçün müraciət etdiyi ittifaq ampluasından çıxmasına yönəldib. Onun sözlərinə görə, indiki durumda ölkəsinin birliyə üzvlük istəyi Gürcüstan Konstitusiyası ilə nəzərdə tutulan məqsəd mahiyyəti daşımaqdan çıxır. "Gürcüstanın nominal və qeyri-bərabərhüquqlu üzvlüyünün 70 illik təcrübəsi var (sabiq SSRİ nəzərdə tutulur – red.) və biz bunu təkrarlamaq niyyətində deyilik. Əgər Aİ üzvü olan keçmiş sovet respublikaları belə dəyişikliklərə yol versələr, onda məlum olacaq ki, onların problemi Sovet İttifaqının özü ilə deyil, sadəcə, həmin birlikdə kimin dominant mövqedə olması ilə bağlı imiş", – deyən Ş.Papuaşvilinin yanaşması məntiqidir.

Bir daha xatırladaq ki, Aİ-nin Genişlənmə məsələləri üzrə komissarı Marta Kos Lüksemburqda qurum ölkələrinin xarici işlər nazirlərinin görüşü ərəfəsində yeni üzvlər üçün veto hüququnun məhdudlaşdırılacağını təsdiqləmişdi. S.Papuaşvili də sosial şəbəkə hesabında məhz bunu tənqid edib. Bütün bunların fonunda ortadakı mənzərə belə deməyə əsas verir ki, Gürcüstan iqtidarı Avropa məkanında baş verən hadisə və proseslərə, o cümlədən ayrı-ayrı səlahiyyət sahiblərinin fikirlərinə dolğun reaksiya verməklə, Aİ ilə münasibətlər müstəvisinə xələl gəlməsinə bəhanə verirlər. Daha doğrusu, ikincilərin onsuz da mövcud olan anti-Gürcüstan təmayülünü bir qədər də körükləyirlər.

Diqqətə çatdırdıqlarımız fonunda belə qənaətə gəlmək mümkündür ki, qarşıdakı müddətdə Gürcüstanın Aİ-yə üzvlüyü üçün onsuz da mövcud olan problemlər və maneələr dərinləşəcək. Axı "qoca qitə"nin siyasi isteblişmenti dözümlü deyil. Nəinki dözümsüzdür və bu, gerçək demokratiyaya yad təzahürdür, eyni zamanda, həmin siyasi isteblişment ciddi şəkildə qərəzlidir ki, durumun müxtəlif təzahürlərinin Gürcüstana münasibətdə zaman-zaman ortaya qoyulduğu da danılmaz faktdır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# G7-də qlobal təhlükəsizlik müzakirəsi



***(əvvəli 1-ci səhifədə)***

Yada salaq ki, sammitin ilk günlərində Ukrayna məsələsinə yanaşma nisbətən daha ehtiyatlı idi. Avropa liderləri Vaşinqtonun gələcək strategiyasına dair qeyri-müəyyənlik fonunda daha koordinasiyalı mövqe formalaşdırmağa çalışırdılar. İkinci gün isə Trampın çıxışları bu mənzərəni qismən dəyişdi, o, Kiyevə dəstəyin davamını tam inkar etmədən, bu dəstəyin strukturunun yenidən bölüşdürülməsi ideyasını ön plana çıxardı. ABŞ liderinin yanaşması mahiyyət etibarilə iki paralel mesajı özündə ehtiva edirdi. İlk növbədə rəsmi Vaşinqton Ukraynaya tamamilə arxa çevirmək niyyətində deyil. İkincisi isə, müharibənin maliyyə, hərbi və siyasi yükünün daha böyük hissəsinin Avropa tərəfindən daşınması zərurəti vurğulanırdı. İkinci məqam Aİ paytaxtlarında yeni narahatlıq doğurdu. Çünki onlar üçün Ukrayna məsələsi Avropanın gələcək strateji avtonomiyasının sınaq meydanıdır. ABŞ-ın dəyişkən mövqeyi fonunda Avropa artıq daha çox məsuliyyət daşıyan aktora çevrilmək məcburiyyətində qalır. Trampın mesajları bu tendensiyanı sürətləndirə bilər.

Sammitdə səsləndirilən fikirlərdən belə nəticə çıxır ki, ABŞ tərəfi Ukraynaya yardımın davamı üçün Avropa ölkələrinin daha böyük maliyyə öhdəlikləri götürməsini gözləyir. Bu, həm hərbi yardım paketlərinə, həm də iqtisadi bərpa layihələrinə aiddir. Eyni zamanda, Rusiyaya qarşı sanksiya siyasətinin daha sərt şəkildə davam etdirilməsi məsələsində də Avropa ölkələrindən fəal mövqe tələb olunur. Qısası, Vaşinqton artıq yük paylaşımını yenidən dizayn edən aktor kimi çıxış edir. Bu isə G7 daxilində ənənəvi rol bölgüsünü dəyişdirir və Avropa ilə ABŞ arasında strateji məsuliyyət balansını yenidən müzakirəyə açır.

Ümumən Brüsseldə formalaşan ümumi siyasi atmosfer ondan ibarətdir ki, yumşalma yeni şərtlər sistemi yaradır. Həmin sistemdə yardımın davamı daha çox qarşılıqlı öhdəliklərə bağlanır və Avropa üçün əlavə yük formalaşır. Əslində, proses o qədər təəccüb doğurmamalıdır. Çünki Ukrayna müharibəsinin başlanğıcından etibarən Qərb koalisiyası əsasən ABŞ liderliyinə söykənirdi. Lakin son illərdə həm daxili siyasi dəyişikliklər, həm də qlobal prioritetlərin transformasiyası sözügedən modelin davamlılığını sual altına qoyub. Trampın G7-dəki çıxışları bu dəyişimin simvolik ifadəsi kimi başa düşülür. Avropa üçün əsas strateji dilemma ondan ibarətdir ki, qoca qitə həm ABŞ-la transatlantik ittifaqı qorumaq, digər tərəfdən isə öz təhlükəsizlik məsuliyyətini artırmaq məcburiyyətindədir. Sözügedən balans çox incədir və hər hansı yanlış addım həm Ukrayna dəstəyinin zəifləməsinə, həm də NATO daxilində gərginliyin artmasına səbəb ola bilər.

Məsələnin iqtisadi tərəfi də az əhəmiyyət daşımır. Müharibə uzandıqca, Avropa iqtisadiyyatında enerji qiymətləri, müdafiə xərcləri və sosial büdcələr üzərində təzyiq artır. ABŞ isə daha çox strateji prioritetləri Asiya-Sakit okean regionuna yönəltməyə çalışır. Bu fərqliliklər tərəflər arasında yük bölgüsünü daha da aktual edir. Trampın mesajlarının şərtli dəstək kimi qiymətləndirilməsi də məhz bundan qaynaqlanır. O, Ukraynaya dəstəyin prinsipcə davam etdiyini göstərsə də, bu dəstəyin strukturunun dəyişməsini tələb edir. Həmin dəyişiklik isə Avropanın daha aktiv və maliyyə baxımından ağır rol almasını nəzərdə tutur. Bəzi analitiklər bu yanaşmanı strateji yenidən balanslaşdırma kimi dəyərləndirir. Yəni ABŞ Ukrayna məsələsində liderlik yükünü paylaşmaq istəyir. Digərləri isə bunu daha sərt formada məsuliyyətin Avropaya ötürülməsi kimi izah edirlər.

Yeri gəlmişkən, G7 çərçivəsində yaranan yeni dinamika, sadəcə, Ukrayna ilə məhdudlaşmır. Proses qlobal təhlükəsizlik arxitekturasının yenidən formalaşmasının bir hissəsidir. Çünki enerji təhlükəsizliyi, müdafiə sənayesi, sanksiya mexanizmləri və diplomatik koordinasiya artıq əvvəlki kimi sabit deyil. Hazırkı mərhələnin necə nəticələnəcəyi Avropanın öz strateji qərarlarından asılı olacaq. Lakin Ukrayna müharibəsi bu böyük geosiyasi dəyişimin mərkəzində qalmağa davam edir.

Bir məqamı da qeyd edək ki, Tramp bundan öncə 80 illik yubileyi münasibətilə almaq istədiyi hədiyyəni açıqlamışdı. Ağ Ev rəhbəri məsələ ilə bağlı sualı cavablandıraraq bildirmişdi ki, Yaxın Şərqdə sülhdən daha böyük bir hədiyyə istəyir. Bu kontektdə G7-də Ukrayna ilə bağlı verilən mesajlar dərindən təhlil edildikdə daha geniş siyasi mənzərə ortaya çıxır. Görünür, Tramp üçün "hədiyyə" anlayışı qlobal münaqişələrin azaldılması, yükün yenidən bölüşdürülməsi və ABŞ-ın beynəlxalq sistemdə rolunun tərif edilməsi ilə bağlı strateji məqsədlərlə bağlıdır.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Rəqəmsal dövlət və təhlükəsizlik



## II MƏQALƏ

### Qlobal təhdidlər və müstəqillik

Bu mövzuda I məqalədə təhlükəsizliyin tømininin qlobal geosiyasi dinamika ilə sıx bağlı olduğunu vurğulamışıq. Siyasi liderlər, strateqlər, analitiklər və ekspertlər bu əlaqənin mövcudluğundan bəhs edirlər – hər bir müstəqil dövlətin təhlükəsizliyinin regional və qlobal konteksti bir-biri ilə sıx əlaqəlidir. O halda Azərbaycanın təhlükəsizlik strategiyasının mühüm cəhətlərindən biri regional və qlobal miqyaslarda meydana gələn riskləri ciddi surətdə nəzərə almaqdan ibarət olmalıdır.

Bu anlamda rəqəmsallıq, yeni informasiya texnologiyaları və kiberalətlər Azərbaycan üçün sadəcə ən son elmi, informasiya və mədəni nailiyyətləri cəmiyyətə tətbiq etmək deyildir. Burada mühüm bir nəzəri və praktiki-tətbiqi məqam mövcuddur ki, üzərində dayanmağa ehtiyac vardır. Onun dərin və geniş konseptual əsası Azərbaycan Prezidenti İlham Əliyev 2026-cı il mayın 28-də Şuşa rayonunun Böyük Qaladərəsi kəndinə qayıdan sakinlərlə görüşü zamanı söylədiyi bir neçə fikirdə ifadəsini tapmışdır.

Dövlət başçısı demişdir: “Müstəqillik - bu, böyük nemətdir, böyük nailiyyətdir. Amma əsl müstəqillik o vaxt olur ki, ölkə müstəqil siyasət apara bilsin. Bax, Azərbaycan o ölkələrdəndir. İndi dünyada 200-ə yaxın müstəqil ölkə var. Amma demək olmaz ki, onların hər biri doğrudan da müstəqildir. Biz, sözün əsl mənasında, müstəqil dövlətik. Çünki öz taleyimizi özümüz həll edirik, siyasətimizi heç kimə baxmadan xalqın, dövlətin naminə, milli maraqların qorunması əsasında aparırıq. Buna görə də dünyada böyük şöhrət qazanmışıq”.

Bu fikirlərdən aydın olur ki, ölkənin təhlükəsizliyi, əslində, xüsusi seçilmiş faktorların elə sintezidir ki, kompleks halında dövlətin, ölkənin, cəmiyyətin müstəqilliyini təmin edən sinergetik effekt yaratmaq mümkün olsun. Burada “sinergetik effekt” ifadəsinin izahını vermək gərəkdir.

Birincisi, sinergetik effekt yuxarıda işlədilən anlamda müstəqilliyin daimi, dinamik və yeniliklərə açıq sistem olaraq var olmasını təmin etməyin elmi ifadəsidir. Bu anlamda sinergetik effekt substantiv və funksional aspektləri özündə ehtiva edən “yekun faktor-obraz”dır.

İkincisi, təhlükəsizlik kontekstində sinergetik effektdən yalnız dövlət, ölkə və cəmiyyətin qarşılıqlı əlaqədə təhlükəsizliklərinin təmin olunduğu halda danışmaq olar.

Bu iki tezisin mənası Prezident İlham Əliyevin yuxarıda vurğuladığımız görüşdə ifadə etdiyi aşağıdakı fikrin işığında daha aydın dərk edilir. Dövlət başçısı demişdir: “İndi hər şey göz qabağındadır. Müharibələr yan-yörəmizi əhatə edib: istər Şimalda, istər Cənubda, istər başqa yerlərdə. Yəni bu müharibələrin sonu olacaqmı? Heç kim bilmir. Nə ilə nəticələnəcək? Heç kim bilmir. Bu müharibələrin qalibi kimdir? Onu da demək çətindir, hərə deyir ki, mən qalibəm”.

Azərbaycanın təhlükəsizliyindən hazırda özünü göstərən yüksək risklər və qeyri-müəyyənliklərlə dolu qlobal geosiyasi mənzərənin fonunda bəhs etmək lazım gəlir. Bu bağlılıqda da rəqəmsallıq, süni intellekt, kiberalətlər və informasiya texnologiyalarının təhlükəsizlik aspektində tətbiqi ön sıraya çıxır. Həmin bağlılıqda bir neçə xüsusiyyətin üzərində dayanaq.

### İki bəyannamə və təhlükəsizlik strategiyası

Şuşa Bəyannaməsində (2021-ci il 15 iyun) yazılmışdır: “Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər”.

Bu mövqe 2024-cü il 6 iyulda Şuşada keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə qəbul edilmiş Qarabağ Bəyannaməsində daha geniş kontekstdə inkişaf etdirilmişdir. Bəyannamədə vurğulanır ki, “Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışlarının türk dövlətlərinin vahid güc kimi çıxış etməsini tələb etdiyini və qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərlə bağlı mütəmadi məsləhətləşmələrin aparılmasının zəruriliyini etiraf edirik”.

Beləliklə, TDT-nin hər bir üzvünün təhlükəsizliyi türk dövlətlərinin vahid güc kimi çıxış etməsini tələb edir və bu anlamda təşkilatın təhlükəsizliyi ilə səsləşir. Bunun real həyata keçməsi üçün TDT üzvləri liderlərinin qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərlə bağlı mütəmadi məsləhətləşmələri zəruri hesab olunur.

Təhlükəsizliyin Türk dünyası kontekstinə bu cür sıx bağlanmasını təmin edən başlıca mexanizmlər sırasında TDT-nin Yaşıl Rəqəmsal Platforması və Rəqəmsal hökumət (e-Hökumət) infrastrukturlarının daha da inkişaf etdirilməsinin, elektron sənəd mübadiləsi üçün e-imza/rəqəmsal imza mexanizmlərinin uyğunlaşdırılmasının və onlayn dövlət xidmətlərinin inteqrasiyasının; kiberinsidentlərə və kiberhücumlara qarşı ümumi kibertəhlükəsizliyin qorunması tədbirlərinin; süni intellekt üzrə siyasətlərin, təlimatların və tərəfdaşlıqların qurulmasının; məlumat mərkəzlərinin və bulud infrastrukturlarının yaradılması üzrə siyasət və ən yaxşı təcrübələrin inkişaf etdirilməsinin təşviqi ayrıca yer tutur.

### Yeni dünya nizamında təhlükəsizlik

Bütün bunların fonunda rəqəmsal dövlətlə təhlükəsizlik arasında qarşılıqlı bağlılığın çox mühüm bir aspektini Prezident İlham Əliyev 15 iyun 2026-cı il tarixində Şuşada keçirilən “Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu” mövzusunda beynəlxalq konfransın iştirakçılarına etdiyi müraciətdə yer almış aşağıdakı fikirlər çox əhəmiyyətli və aydınlaşdırıcı məqam kimi görünür.

Dövlət başçısı müraciətində ifadə etmişdir: “Ədalətli dünya nizamının və bəşəriyyət üçün təhlükəsiz həyat şəraitinin yaradılmasının tərəfdarı olan Azərbaycan təkcə regionun deyil, eləcə də bütövlükdə Avrasiyanın etibarlı əməkdaşlıq məkanına çevrilməsi istiqamətində çalışmaqdadır. Dost və qardaş ölkələrlə, xüsusən Türk dünyası ilə birlikdə atılan qətiyyətli addımlar beynəlxalq əməkdaşlıq baxımından xüsusi əhəmiyyət daşıyır və ailəmiz olan Türk dünyasını XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevirir”.

Azərbaycanın mövqeyində qlobal nizamda təhlükəsiz həyat şəraiti prioritetlərdən biri statusundadır. Əslində, bu məsələ XXI əsrin xüsusiyyətlərinə uyğun olaraq insan kapitalının ön sıraya çıxarılmasını əks etdirir. Dünyanın hər bir ölkəsində insanların təhlükəsiz həyat şəraiti təmin edilməlidir. O cümlədən rəqəmsallıq, süni intellekt, informasiya texnologiyaları və kiberalətlər, ilk növbədə, bu məqsədə xidmət etməlidir. Buna görədir ki, Azərbaycanın irəli sürdüyü sülh gündəliyi beynəlxalq hüquq normalarına, dövlətlərin ərazi bütövlüyünün qorunmasına və sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanır. Bununla regional münasibətlərdə qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsipləri aparıcılıq təşkil edir. Vurğulanan yanaşma Cənubi Qafqazın sabit, təhlükəsiz və firavan gələcəyini qurmağa əsas yaradır.

### Strateji məqam

Azərbaycanın rəqəmsal dövlət kimi vurğulanan özəllikləri təhlükəsizliyin strateji aspekti ciddi surətdə nəzərə almaqla çoxşaxəli model üzrə təmin edildiyi aydınlaşır. Burada nəqliyyat-logistika ilə infrastrukturun yeniləşməsinin vahid sistemdə birləşdirildiyi görünür. Onun təzahürü olaraq “Yeni İpək Yolu” layihəsi çərçivəsində Orta Dəhliz və Zəngəzur dəhlizinin geosiyasi funksiyalarının göstərə bilərik. Mütəxəssislər artıq Zəngəzur dəhlizinin çoxstrukturlu geosiyasi şəbəkənin elementi statusunda qəbul edildiyini vurğulayırlar. Bunun anlamı dərin və əhatəlidir. Bir aspekti də regional təhlükəsizlik sisteminin yaradılması ilə əlaqəlidir. Onun iki aspektini qeyd etmək olar.

Birincisi, Zəngəzur dəhlizinin “3+3” formulu kontekstində təhlükəsizliyin vacib tərkib hissəsi kimi qəbul edilməsi. Həmin kontekstdə TRIPP daha geniş geosiyasi təhlükəsizlik sisteminin bir hissəsidir. Bu formulun təşəbbüskarının Azərbaycan olduğu məlumdur.

Deməli, Zəngəzur dəhlizi ümumi Orta Dəhliz layihəsinin bir hissəsi olaraq ciddi geosiyasi statusa malik olur. Rəqəmsallıq və süni intellekt bu baxımdan multimodal xarakterli Zəngəzur dəhlizi layihəsinin reallaşmasında nəqliyyat-logistika məkanı olmaqla yanaşı, bütövlükdə “Yeni İpək Yolu” layihəsinin təhlükəsizlik sisteminin bir parçası statusuna da malik olur.

İkincisi, Zəngəzur dəhlizi Şərqlə Qərbi birləşdirən multimodal nəqliyyat və logistika sisteminin Cənubi Qafqaz hissəsinin mühüm elementi olaraq qəbul edilməlidir. Geosiyasi proseslərin ümumi məntiqi bu dəhlizin reallaşmasını artıq zərurətə çevirmişdir. Onun təhlükəsizliyinin təminatçısı kimi isə Azərbaycan da daxil olmaqla bir neçə dövlət çıxış edəcək.

Mürəkkəb nəqliyyat, logistika, informasiya-kommunikasiya, daşımaların müxtəlif növləri vahid sistemdə cəmləşdirilir. Onun idarə edilməsi isə rəqəmsallıq, kiberalətlər və süni intellektin eyni sistemdə bir-birini tamamlayaraq tətbiq olunmasını nəzərdə tutur. Lakin bu zaman müəyyən risklərin meydana çıxa biləcəyi ehtimalı istisna edilmir.

### Kibertəhdidlər və dələduzluqla mübarizə

Məsələn, kibertəhdidlər və dələduzluğun səviyyəsi yüksələ bilər. Digər tərəfdən, çox güclü rəqəmsal infrastrukturun yaradılması zərurəti meydana gələ bilər. Bir tərəfdən, kiberalətlər vasitəsilə mövcud təhlükəsizlik sistemini korlaya bilərlər. Digər tərəfdən, bu da özlüyündə daha güclü rəqəmsal infrastrukturun yaradılması tələbəni ortaya çıxarar ki, zamanlamada gecikmə halı ola bilər.

Əgər Zəngəzur dəhlizi məkanında baş versə, kommunikasiyada ciddi fasilələr yaranar ki, bütövlükdə “Yeni İpək Yolu” layihəsi zərər görər. Belə alınır ki, təhlükəsizliyin təmini aspektində “3+3” və rəqəmsallaşmanın qarşılıqlı əlaqələri geosiyasi və konkret ixtisaslaşma kontekstlərinin bir-birini tamamlamasını tələb edir. Həmin çərçivədə rəqəmsallaşma transsərhəd inteqrasiyanı, rəqəmsal nəqliyyat dəhlizlərinin yaradılmasını, logistikaya texnologiyaların tətbiqini və rəqəmsal iqtisadiyyatın inkişafını ehtiva edir. Önəmli olanı, bu elementlər kompleksini vahid təhlükəsizlik sistemində birləşdirməkdən ibarətdir.

Bu cür mürəkkəb sistem özlüyündə pilləli təhlükəsizlik sisteminin qurulmasını tələb edir. Burada nəqliyyat, informasiya və tranzit aspektləri bir-birini vahid sistem daxilində tamamlamalıdırlar. Azərbaycan bu prosesin çox fəal iştirakçısıdır. Prezident İlham Əliyev “Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu” konfransının iştirakçılarına ünvanladığı müraciətdə xüsusi vurğulamışdır: “Ölkəmiz regionda davamlı sülh və sabitlik mühitinin yaradılması və qorunması istiqamətində qətiyyətli siyasət həyata keçirməkdədir”. Bakı regional sabitlik və sülhün yaradılması ilə onun qorunmasını (yəni təhlükəsizliyinin təminini) bir-biri ilə sıx əlaqədə həyata keçirən rəqəmsal dövlətdir.

Bu prosesin təməlini Şuşa Bəyannaməsi təşkil edir ki, burada Azərbaycan-Türkiyə münasibətləri regional təhlükəsizlik arxitekturasının ən önəmli sütunlarından biridir.

Beləliklə, Azərbaycanın rəqəmsal dövlət kimi çox mühüm funksiyası geniş bir geosiyasi məkanda əməkdaşlıq platformaları ilə rəqəmsal təhlükəsizlik sisteminin yaradılmasının səmərəli sintez edilməsinə nail olmaqdan ibarətdir. Bu proses son illər daha da intensivləşdirilmişdir və 2025-2026-cı illərdə dalbadal keçirilən mötəbər tədbirlər onun sistemli və davamlı olaraq inkişaf etdiyini göstərir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Cənubi Qafqazın geostrateji mövqeyi və müasir təhlükəsizlik çağırışları Bakı–Ankara–Tbilisi xəttinin strateji rolunu gücləndirərək, terrorizmə qarşı birgə mübarizə və regional sabitlik mexanizmlərinin dərinləşdirilməsinə şərait yaradır. Bu əməkdaşlığın əsas istiqamətlərindən biri qlobal əhəmiyyətli enerji və nəqliyyat layihələrinin təhlükəsizliyidir. Avropanın enerji təchizatında mühüm rol oynayan neft-qaz kəmərləri, eləcə də Bakı–Tbilisi–Qars dəmir yolu və Orta Dəhliz kimi beynəlxalq logistika marşrutlarının mühafizəsi 3 ölkənin ortaq prioritetləri sırasındadır.**

# Bakı–Ankara–Tbilisi üçbucağında qoruyucu zireh

*“Qafqaz qartalı-2026” təlimləri ortaq maraq və hədəflərin keşiyində*



Regional hərbi koordinasiyanın gücləndirilməsi bu kontekstdə həm müdafiə, həm də strateji iqtisadi maraqların qorunması baxımından əhəmiyyət daşıyır. Bu kondeksdə “Qafqaz qartalı-2026” təlimi 3 ölkənin ortaq təhlükəsizlik maraqlarının praktik müstəvidə reallaşdırılmasının növbəti mərhələsidir.

Tarixi təcrübə göstərir ki, regionun enerji və nəqliyyat infrastrukturları müxtəlif dövrlərdə terror və təxribat riskləri ilə üzləşib. 2008-ci ildə Türkiyə ərazisindən keçən Bakı–Tbilisi–Ceyhan neft kəmərində baş vermiş partlayış beynəlxalq mediada terror aktı kimi qiymətləndirilib və strateji enerji marşrutlarının nə qədər həssas hədəf olduğunu nümayiş etdirib. Sonrakı illərdə də Türkiyədə fəaliyyət göstərən terror təşkilatları tərəfindən enerji kəmərlərinə qarşı müxtəlif hücum cəhdləri qeydə alınıb. Bu hadisələr region ölkələri üçün enerji təhlükəsizliyi sahəsində birgə fəaliyyətin zəruriliyini ortaya qoyub.

Bununla yanaşı, Azərbaycanın enerji infrastrukturu da müxtəlif dövrlərdə təhdid və risklərin potensial hədəfi kimi qiymətləndirilib. Regionun strateji kommunikasiya xətlərinin təhlükəsizliyinin əhəmiyyəti 2020-ci ilin iyulunda baş vermiş Tovuz döyüşləri zamanı özünü aydın şəkildə göstərdi. Bir sıra yerli və beynəlxalq ekspertlərin qiymətləndirmələrinə görə, döyüşlərin məhz Tovuz istiqamətində baş verməsi təsadüfi deyildi. Çünki Azərbaycanın Avropa və dünya bazarlarına çıxışını təmin edən əsas enerji və nəqliyyat layihələri olan Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Bakı–Tbilisi–Qars dəmir yolu və Şərq–Qərb nəqliyyat dəhlizinin mühüm hissələri bu ərazidən keçir. Rəsmi Bakı da Tovuz hadisələrinin regionun enerji və nəqliyyat təhlükəsizliyi üçün ciddi risk yaratdığını qeyd etdi. Bu hadisələr bir daha göstərdi ki, Cənubi Qafqazda enerji və nəqliyyat infrastrukturunun mühafizəsi yalnız iqtisadi məsələ deyil, həm də regional təhlükəsizliyin və geosiyasi sabitliyin mühüm komponentidir.

* * *

2020-ci ilin Vətən müharibəsi zamanı da Ermənistan tərəfindən Yevlax rayonu istiqamətində Bakı–Tbilisi–Ceyhan neft kəmərinin keçdiyi əraziyə raket zərbəsi endirmək cəhdi olmuşdu. Rəsmi Bakı bu hadisəni regionun enerji təhlükəsizliyinə yönəlmiş təxribat xarakterli addım kimi qiymətləndirdi. Daha sonra, 2021-ci ildə Azərbaycanda saxlanılan erməni diversantlarla bağlı məhkəmə proseslərində onların ifadələrində Bakı–Tbilisi–Ceyhan neft kəmərinə qarşı təxribat planları barədə məlumatlar yer aldı. Bu faktlar enerji infrastrukturunun yalnız iqtisadi deyil, həm də strateji təhlükəsizlik baxımından yüksək həssaslığa malik olduğunu və onun hədəfə alınmasının bütövlükdə regional sabitliyə təsir göstərə biləcəyini göstərdi.

Şübhəsiz, geosiyasi rəqabətin artdığı və hibrid müharibə elementlərinin geniş yayıldığı müasir dövrdə enerji və nəqliyyat dəhlizlərinə qarşı risklər daha mürəkkəb xarakter alıb. Artıq təhlükələr yalnız silahlı hücumlar və klassik terror aktları ilə məhdudlaşmır. Kiberhücumlar, diversiya əməliyyatları, pilotsuz uçuş aparatlarından istifadə etməklə təxribatlar və kritik infrastruktura yönəlmiş hibrid xarakterli fəaliyyətlər də təhlükəsizlik gündəliyinin əsas çağırışları sırasındadır. Bu şəraitdə strateji kommunikasiya xətlərinin mühafizəsi Azərbaycan, Türkiyə və Gürcüstan arasında təhlükəsizlik əməkdaşlığının prioritet istiqamətlərindən biri kimi çıxış edir.

Məhz buna görə üçtərəfli hərbi təlimlər yalnız döyüş hazırlığının artırılmasına xidmət etmir. Belə təlimlər tərəfdaş ölkələrin xüsusi təyinatlı qüvvələri və təhlükəsizlik strukturları arasında qarşılıqlı fəaliyyət imkanlarını genişləndirir, antiterror əməliyyatlarının planlaşdırılması və icrası üzrə praktiki bacarıqları inkişaf etdirir, həmçinin potensial təhdidlərə qarşı operativ reaksiya mexanizmlərinin təkmilləşdirilməsinə şərait yaradır. Bu əməkdaşlıq modeli, eyni zamanda, regionda sabitliyin, qarşılıqlı etimadın və təhlükəsizlik sahəsində koordinasiyanın möhkəmləndirilməsinə xidmət edir.

Bu kontekstdə “Qafqaz qartalı-2026” birgə taktiki-xüsusi təlimi sırf hərbi hazırlıq tədbiri olmaqdan daha geniş məna kəsb edir. Təlim 3 ölkənin ortaq təhlükəsizlik maraqlarının praktik müstəvidə reallaşdırılmasının növbəti mərhələsi kimi çıxış edir. Birgə fəaliyyətlərin planlaşdırılması, xüsusi təyinatlı bölmələr arasında qarşılıqlı əlaqənin təkmilləşdirilməsi, antiterror hazırlığının gücləndirilməsi və qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi vasitəsilə bu təlim regionda təhlükəsizlik əməkdaşlığının institusional əsaslarını daha da möhkəmləndirir. Bu baxımdan “Qafqaz qartalı-2026” yalnız hərbi hazırlığın artırılması ilə yanaşı, enerji və nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin təmin olunmasına, regional sabitliyin qorunmasına və Azərbaycan, Türkiyə və Gürcüstan arasında uzunmüddətli strateji tərəfdaşlığın daha da inkişaf etdirilməsinə xidmət edir. Həm də regional sabitliyi gücləndirməyi, xüsusi təyinatlı qüvvələrin qarşılıqlı fəaliyyət qabiliyyətini artırmağı və müasir təhlükəsizlik çağırışlarına birgə cavab vermək bacarıqlarını inkişaf etdirməyi hədəfləyir.

Mövzu ilə bağlı **hərbi ekspert Üzeyir Cəfərov** XQ-yə açıqlamasında bu kimi birgə təlimlərin regionda sülhün möhkəmləndirilməsi, xüsusilə Orta Dəhliz və digər qlobal enerji-nəqliyyat layihələrinin təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadığını bildirdi. Onun fikrincə, bu təlimlər həm də regionda maraqlı olan qeyri-konstruktiv qüvvələrə ünvanlanan ciddi hərbi-siyasi mesajdır.

Ekspert xüsusi təyinatlı qüvvələr (XTD) arasında koordinasiya, birgə planlaşdırma və çevik reaksiya qabiliyyətinin artırılmasını ön plana çəkir: “Bu tip təlimlər orduların döyüş hazırlığını yüksəldir, müasir döyüş üsullarının mənimsənilməsinə və əməliyyat bacarıqlarının təkmilləşdirilməsinə mühüm töhfə verir. Eyni zamanda, belə əməkdaşlıq formatları real döyüş şəraitinə yaxın mühitdə fəaliyyət vərdişlərinin formalaşmasına imkan yaradır”.

Ü.Cəfərov Türkiyənin hərbi potensialı və NATO standartlarına uyğun təcrübəsinin Azərbaycan Ordusuna inteqrasiyasını xüsusi vurğuladı, birgə təlimləri peşəkarlığın artırılmasında əsas amillərdən biri kimi dəyərləndirdi. O, həmçinin Azərbaycanın Gürcüstanla bu formatda əməkdaşlığını Cənubi Qafqazda güc balansının milli maraqlara uyğun formalaşması baxımından müsbət qiymətləndirdi.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Konstitusiya Məhkəməsi ilə İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının əməkdaşlığı

**İyunun 17-də Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının icraçı direktoru Hadi Bin Ali Alyaminin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Fərhad Abdullayev ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi, hüququn aliliyinin təmin olunması və demokratik institutların möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl islahatlar barədə ətraflı məlumat verib. Sədr Konstitusiya Məhkəməsinin insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyətindən, konstitusiya ədalət mühakiməsinin inkişafı istiqamətində görülən işlərdən bəhs edib. Həmçinin konstitusiya hüquqlarının təmin edilməsi sahəsində Konstitusiya Məhkəməsi ilə İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) arasında səmərəli əməkdaşlığı xüsusi qeyd edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Hadi Bin Ali Alyami Azərbaycanın insan hüquqlarının müdafiəsi, hüquqi dövlət quruculuğu və məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi sahəsində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib.



Tərəflər insan hüquqlarının qorunması, hüquqi maarifləndirmə, beynəlxalq hüququn müasir çağırışları və gələcək əməkdaşlıq perspektivləri ilə bağlı geniş müzakirələr aparıb, əməkdaşlığın gələcəkdə daha da inkişaf etdiriləcəyinə əminliklərini ifadə ediblər.

*XQ*

# İƏT nümayəndələri Baş Prokurorluqda



**İyunun 17-də Baş prokuror Kamran Əliyev İslam Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini Yousef Aldobeayinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Baş prokuror bildirib ki, müstəqil Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsi, islam ölkələri arasında elm, mədəniyyət, sosial, iqtisadi və digər müxtəlif sahələrdə əməkdaşlığın dəstəklənməsi missiyası daşıyan İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətinə hər zaman mühüm töhfələr verib. İƏT-in fəal üzvlərindən biri olan ölkəmiz təşkilatın müxtəlif qurumları - ICESCO, İslam İnkişaf Bankı, İslam Konfransı Parlament İttifaqı, İslam Konfransı Gənclər Forumu və s. ilə də sıx əməkdaşlıq edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, İSESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyeva islam ölkələri ərazilərindəki mədəni və tarixi dəyərlərin müdafiəsinə böyük töhfə verib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva İslam dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) müxtəlif tədbirlərində aktiv iştirak edib.

Yousef Aldobeay səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Tahanın salamını çatdırıb. O bildirib ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında aktivliyi ilə fərqlənir, müsəlman ölkələrinin birliyinə, islam həmrəyliyinə mühüm töhfələr verir.

Xüsusi vurğulanıb ki, İƏT-in 16-cı İslam Sammitinə 2027-ci ildə Azərbaycan ev sahibliyi edəcəkdir.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

*XQ*

# Ölkəmizdə İslam maliyyəsi




**Dünən İslam İnkişaf Bankı Qrupunun (İİB) 51-ci illik toplantısı öz işini davam etdirib. Toplantının ikinci günü çərçivəsində keçirilən "Özəl sektor forumu"nun açılış mərasimində çıxış edən Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov İİB-in prezidenti doktor Məhəmməd Əl-Casirə bank ailəsinə daxil olan bütün qurumlarla yüksək səviyyəli əməkdaşlığın qurulmasındakı xidmətlərinə görə təşəkkürünü bildirib.**

İİB-in builki toplantısına ev sahibliyinin Azərbaycana etibar edilməsinə görə həmkarlarına və digər üzv ölkələrin rəhbərlərinə minnətdarlığını çatdıran nazir forumda rekord sayda iştirakçının qeydiyyatdan keçməsini tədbirə olan yüksək marağın göstəricisi kimi dəyərləndirib. M.Cabbarov forum çərçivəsində ümumi dəyəri 4,7 milyard ABŞ dollarını aşan 32-dən çox sənədin, o cümlədən anlaşma memorandumlarının imzalanacağını diqqətə çatdırıb.

Builki toplantının "Davamlı rifah naminə regional inteqrasiya" mövzusunun müasir dövrün çağırışları baxımından xüsusi aktuallıq daşıdığını vurğulayan nazir qeyd edib ki, davamlı rifahın təmin olunması üçün nəqliyyat və iqtisadi əlaqələrin gücləndirilməsi, ticarət və investisiya əməkdaşlığının dərinləşdirilməsi, eləcə də hökumətlər, inkişaf institutları, özəl sektor və digər tərəfdaşlar arasında sıx əməkdaşlıq vacibdir. Onun sözlərinə görə, ötən il keçirilən forum bu platformanın böyük potensiala malik olduğunu nümayiş etdirib.

Sonda M.Cabbarov forumun hazırlanmasında iştirak edən bütün komandaya təşəkkürünü ifadə edib və onların əməyi nəticəsində tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb.

İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir bildirib isə ki, "Özəl sektor forumu", sadəcə, illik tədbir deyil, dialoqun konkret istiqamətlərə çevrildiyi, ideyaların investisiyaya, tərəfdaşlıqların isə vədlərdən real fəaliyyətə keçdiyi canlı platformadır: "İnanırıq ki, inklüziv iqtisadi artım yalnız siyasətlə deyil, sahibkarlıqla, yalnız dövlət səyləri ilə deyil, özəl təşəbbüslərlə, yalnız maliyyələşmə ilə deyil, etimad və tərəfdaşlıqlarla təmin olunur. İİB Qrupuna daxil olan qurumlar maliyyələşdirmə, risklərin azaldılması, sığorta və ticarətin asanlaşdırılması üzrə alətlər təqdim etməklə potensialın real inkişafa çevrilməsinə töhfə verir".

İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev həm Cənubi Qafqaz, həm də Mərkəzi Asiya regionlarının həlledici mərhələdə olduğuna diqqət çəkərək hazırda sözügedən regionların iqtisadiyyatlarının tranzit marşrutları, enerji şəbəkələri, rəqəmsal infrastruktur və insanlar arasında artan əlaqələr vasitəsilə bir-biri ilə daha sıx inteqrasiya olunduğunu bildirib.

O, ölkəmizin regional əlaqələri və iqtisadi əməkdaşlığı uzunmüddətli rifahın əsas hərəkətverici qüvvələrindən biri hesab etdiyini vurğulayaraq deyib: "Azərbaycan enerji və nəqliyyat sahəsində strateji mərkəz kimi öz mövqeyini möhkəmləndirib. Bununla yanaşı, biz beynəlxalq ticarət və investisiyalar üçün də mərkəzə çevrilməyi hədəfləyirik. Böyük infrastruktur layihələrinə yatırılan investisiyalar və davamlı iqtisadi islahatlar sayəsində Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri boyunca bazarların əlaqələndirilməsində rolumuzu gücləndirmiş, malların və xidmətlərin hərəkətini asanlaşdırmışıq. Məsələn, 2020–2025-ci illər ərzində Azərbaycanın ümumi ticarət dövriyyəsi iki dəfədən çox artaraq 24,5 milyard dollardan 49,4 milyard dollara yüksəlib".

Dünən, İİB-in illik toplantısı çərçivəsində "İslam Maliyyəsi üzrə 20-ci IsDB Qlobal Forumu" da keçirilib. Mərkəzi Bankın sədri Taleh Kazımov forumda çıxış edərək ticarətin və mədəniyyətin kəsişməsində yerləşən ölkəmizin tarixən qlobal mübadilədə sabitləşdirici rol oynadığını bildirib. Qeyd olunub ki, artıq Mərkəzi Bankın nəzarəti altında ölkəmizin 2 bankı İslam maliyyəsi məhsullarını sınaqdan keçirib.

Azərbaycanın İslam maliyyəsini ölkənin maliyyə arxitekturasının ayrılmaz hissəsinə çevirmək əzmində olduğunu vurğulayan bank sədri həyata keçirilən islahatların maliyyə bazarlarını şaxələndirəcəyinə və xarici investisiyaların cəlb olunmasına töhfə verəcəyinə əminliyini ifadə edib. Mərkəzi Bankın sədri bildirib ki, regionlar arasında ortaq maliyyə dili rolunu oynayan İslam maliyyəsi sərhədlərarası investisiyaları və özəl sektorun inkişafını təşviq edir.

İslam İnkişaf Bankı İnstitutunun baş direktor vəzifəsini icra edən Sami Əl-Süvaylim isə hazırda dünya islam maliyyə sənayesinin həcminin, təxminən, 4 trilyon ABŞ dolları olaraq qiymətləndirildiyini diqqətə çatdıraraq deyib ki, rəhbərlik etdiyi qurumun vəsaitlərinin hazırda dünya islam maliyyə sənayesinin cəmi 0,1 faizini təşkil etməsinə baxmayaraq, bu təsisat yarandığı 50 ildən artıq müddət ərzində sahənin lideri olub və olmaqda davam edir.

Sami Əl-Süvaylim təşkilatın liderliyini müəyyən edən əsas amillərin onun baxışı, dəyərləri və prinsipləri olduğunu bildirib. O, həmçinin qrupun məqsədlərinə çatması üçün innovasiyaların əhəmiyyətini qeyd edib: "Buna görə də innovasiya bizim missiyamızın uğuru üçün həlledici əhəmiyyət daşıyır. İslam İnkişaf Bankı İnstitutunda innovasiyaları əsas prioritetlərimizdən biri hesab edirik".

Asiya İnkişaf Bankı İnstitutunun rektoru və baş direktoru Bambang Brodjonegoro qeyd edib ki, hazırda üzv ölkələrin qarşısında duran əsas problemlərdən biri orta gəlir məsələsidir. Həmin ölkələrin isə, təxminən, 60 faizinin bu risklə qarşı-qarşıya olduğunu vurğulayan natiq bu problemin davam etməsini, sadəcə, statistik və ya riyazi məsələ deyil, regionda inkişafın əsas məsələsi kimi səciyyələndirib.

Baş direktor əlavə edib ki, orta gəlir məsələsini ayrı-ayrı problemlərin toplusu kimi qiymətləndirmək olmaz: "Bu, texnoloji gerilik, insan potensialından kifayət qədər istifadə olunmaması, zəif institutlar və borc maliyyələşməsindən həddindən artıq asılılıq kimi bir-biri ilə əlaqəli struktur maneələrin qarşılıqlı təsirinin nəticəsidir. Buna görə də problemin diaqnozu inteqrasiyalı olmalı, həll yolu da inteqrasiyalı yanaşmaya əsaslanmalıdır".

Beynəlxalq İslam Ticarətinin Maliyyələşdirilməsi Korporasiyasının baş icraçı direktoru Adeeb Alaama ölkəmizdə İslam maliyyəsinin inkişaf etdiyini bildirib. O, hazırda Azərbaycanda İslam maliyyəsinin perspektivlərinə dair hesabatın təqdimatını əhəmiyyətli dönüş nöqtəsini ifadə etdiyini vurğulayaraq deyib ki, bu, ölkənin İslam maliyyəsi məkanındakı strateji roluna potensial töhfəsini nümayiş etdirir.

Forumda BMT-nin Təlim və Tədqiqat İnstitutunun rifah bölməsinin direktoru Mihoko Kumamoto, Malayziyanın İslami Maliyyə üzrə Beynəlxalq Təhsil Mərkəzinin prezidenti və icraçı direktoru Mohd Azmi Omar, bu ölkənin Mərkəzi Bankının sədr müavini Adnan Zaylani, Azərbaycan Mərkəzi Bankının baş direktoru Şahin Mahmudzadə, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədov və başqaları da çıxış ediblər.

İslam İnkişaf Bankı Qrupunun 51-ci illik toplantısı ikinci iş günü çərçivəsində "Ər-Riyad qlobal quraqlığa dayanıqlılıq tərəfdaşlığının icrasına dair tədbirlər", "Dayanıqlı inkişaf üçün regional enerji əlaqələrinin genişləndirilməsi" və "Regional əlaqəlilik üçün ticarət həllərinin gücləndirilməsi" adlı sessiyalar da keçirilib.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Yerli şirkətlərin tanıtım sərgisi

**İyunun 17-də Bakı Ekspo Mərkəzində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və "Marsol Group"un birgə təşkilatçılığı ilə "7-ci Yerli Şirkətlərin Tanıtım Sərgisi"nin açılış mərasimi keçirilib.**

Açılış mərasimində çıxış edən iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədov, kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev və digər şəxslər sərginin əhəmiyyəti, eləcə də ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlar barədə danışıblar.



Nəzərə çatdırılıb ki, bu sərgi yerli şirkətlərin bir çox sahədə yararlana biləcəyi mühit yaratmaq üçün səmərəli platformadır, dövlət-özəl sektor münasibətlərində etimadın və davamlılığın gücləndirilməsinə xidmət edir. Şirkətlər sərgidə iştirak etməklə öz məhsul və xidmətlərini daha böyük auditoriyaya təqdim etmək, potensial müştərilərlə təmas yaratmaq, yeni müştərilər qazanmaq, əməkdaşlıq edə biləcəkləri şirkətlərlə əlaqə yaratmaq imkanı əldə edirlər. Burada satış proseslərini daha səmərəli etmək, dövlətin biznesə dəstək mexanizmləri barədə maariflənmək də olar.

Qeyd edək ki, sərginin əsas məqsədi Azərbaycan şirkətlərinin fəaliyyətini geniş auditoriyaya tanıtmaq, onların yeni bazarlara çıxışına dəstək olmaq və şirkətlər arasında qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdir.

Dörd gün davam edəcək sərgidə inşaat, qida, İKT, təhsil, sənaye, kənd təsərrüfatı, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən 300-dən çox yerli şirkət öz məhsul və xidmətlərini nümayiş edəcək. Sərgi çərçivəsində, həmçinin iştirakçılar üçün xüsusi ayrılmış "B2B zona"da iri şirkətlərin satınalma və təchizat üzrə rəhbər şəxsləri ilə qarşılıqlı və interaktiv işgüzar görüşlərin keçirilməsi nəzərdə tutulur. Bununla yanaşı, sərgidə "B2G zona" da fəaliyyət göstərəcək. Bu zonada isə sahibkarlar dövlət qurumlarının nümayəndələri ilə birbaşa ünsiyyət qurmaq, mövcud dəstək mexanizmləri ilə tanış olmaq və əməkdaşlıq imkanlarını müzakirə etmək imkanı əldə edəcəklər.

Sərgi yerli məhsulların nümayişi ilə yanaşı, onların ixracına, eləcə də xarici tərəfdaşlarla əlaqələrin qurulmasına xidmət edəcək. Bu məqsədlə sərgiyə xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən ticarət palataları, biznes assosiasiyaları dəvət olunub.

Xatırladaq ki, "Yerli şirkətlərin tanıtım sərgisi" 2019-cu ildən etibarən keçirilir. Budəfəki sərgi Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və "Marsol Group"un birgə təşkilatçılığı və "Birbank Biznes"in rəsmi tərəfdaşlığı ilə təşkil olunub. Bundan əlavə, İş adamları Cəmiyyətinin Milli Assosiasiyası, Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Dövlət Reklam Agentliyi sərginin tərəfdaşları sırasında yer alıb. Sərginin promo tərəfdaşı "Moon Group", media tərəfdaşı isə "BHB Strategic and Creative CO"dur.

Sahibkarların müraciətləri və ziyarətçilərin marağı nəzərə alınaraq sərgi 4 gün davam edəcək. Budəfəki sərgidə mikro və kiçik sahibkarların iri şirkətlərin rəhbərləri ilə "B2B" formatlı görüşləri təşkil olunacaq. Bu da mikro və kiçik sahibkarların iri şirkətlərlə əlaqələrinin genişləndirilməsi və onların təchizat zəncirində iştirakının artırılmasına imkan yaradacaq.

*M.BAĞIRLI*
*XQ*

# İCD ilə 295 milyon dollarlıq sazişlər

**İslam İnkişaf Bankı Qrupunun Bakıda keçirilən illik toplantısı çərçivəsində Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (ICD) ilə Azərbaycan arasında bir sıra sazişlərin mübadiləsi həyata keçirilib.**



Qeyd edək ki, ICD ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanmış saziş ölkəmizdə maliyyə, investisiya və konsaltinq imkanlarının araşdırılması üzrə əməkdaşlığı nəzərdə tutur. Qurumun Azərbaycan Biznesin İnkişafı Fondu ilə arasında imzaladığı sənəd isə yerli valyutada maliyyə institutlarına kredit xətlərinin təqdim edilməsini və həmin vəsaitlərin özəl sektor şirkətlərinin maliyyələşdirilməsinə yönəldilməsini əhatə edir. Sözügedən sazişin dəyəri 200 milyon manat təşkil edir.

Toplantı çərçivəsində ICD Türk İnvestisiya Fondu ilə 50 milyon ABŞ dolları həcmində çərçivə sazişi, "Azerbaijan Connect Group" ilə 20 milyon dollar həcmində birbaşa maliyyələşdirmə xətti, eləcə də "TuranBank" ilə 15 milyon dollar həcmində kredit xəttinin verilməsinə dair razılaşma mübadiləsi həyata keçirib. Sözügedən kredit xətti ICD tərəfindən banka təqdim ediləcək və vəsaitlər Azərbaycanın özəl sektorunda uyğun meyarlara cavab verən şirkətlərin maliyyələşdirilməsinə yönəldiləcək.

Bununla yanaşı, Beynəlxalq İslam Ticarət Maliyyəsi Korporasiyası ilə "Rabitəbank" arasında maliyyələşdirmə şərtlərinə dair 10 milyon dollar məbləğində məktub imzalanıb. Ümumilikdə isə, imzalanan sənədlərin dəyəri 295 milyon dollar təşkil edib.

*XQ*

*Prezident fərman verib*

# Azərbaycan dövləti qeyri-neft ixracını fəal dəstəkləyir

## Dünya bazarına çıxışın yeni mexanizmi

**Prezident İlham Əliyevin "Qeyri-neft-qaz malları üzrə ixracın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" 16 iyun 2026-cı il tarixli fərmanı Azərbaycanın iqtisadi inkişaf strategiyasında yeni mərhələnin başlanğıcı kimi diqqət çəkir. Bu sənəd ölkədə qeyri-neft sektorunun inkişafına, ixracın şaxələndirilməsinə və xüsusilə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin xarici bazarlara çıxışının genişləndirilməsinə yönələn mühüm dəstək mexanizmi yaradır.**



Son illər Azərbaycanın iqtisadi siyasətinin əsas prioritetlərindən biri olan qeyri-neft sektorunun inkişafı və ixrac potensialının artırılmasına xüsusi önəm verilib. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar nəticəsində kənd təsərrüfatı, qida sənayesi, tekstil, tikinti materialları, maşınqayırma və digər sahələrdə istehsal imkanları genişlənib.

Lakin ixrac prosesində xüsusilə kiçik və orta sahibkarların qarşılaşdığı əsas problemlərdən biri əlavə xərclərin yüksək olması ilə bağlıdır. Məsələn, gömrük rəsmiləşdirilməsi zamanı ödənilən yığımlar bəzi hallarda ixracın rentabelliyinə mənfi təsir göstərir. Yeni fərman isə məhz bu çətinliyi aradan qaldırmaq məqsədi daşıyır.

Ekspertlər sənədin mahiyyəti ilə bağlı bildirirlər ki, bundan sonra Azərbaycan mənşəli qeyri-neft-qaz məhsullarını xarici bazarlara çıxaran mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ödədikləri gömrük rəsmiləşdirilməsi xərcləri dövlət tərəfindən kompensasiya olunacaq. Bu yanaşma sahibkarların maliyyə yükünü azaltmaqla yanaşı, ixrac əməliyyatlarını daha cəlbedici və sərfəli edəcək.



Xatırladılır ki, indiyədək respublikada ixrac təşviqi mexanizmləri əsasən məhsulun ixrac dəyərinə görə verilən təşviqlər, sərgilərdə iştirakın maliyyələşdirilməsi, "Made in Azerbaijan" brendinin daha geniş coğrafiyada təqdim olunması və marketinq dəstəyi formasında həyata keçirilirdisə, sözügedən fərmanın icrası bu prosesin stimullaşdırılması üçün maliyyə baxımından yeni sisteminin yaradılmasını qarşıya mühüm vəzifə kimi qoyur. Başqa sözlə, sənəd ixracın inzibati və maliyyə xərclərinin azaldılmasını şərtləndirir. Belə bir yanaşma isə dövlətin artıq təkcə ixracın nəticəsini deyil, eyni zamanda, bu prosesin təşkilini də maliyyə baxımından dəstəkləməsi deməkdir. Eyni zamanda, bu, beynəlxalq təcrübədə geniş istifadə olunan "ticarətin asanlaşdırılması" siyasətinin mühüm elementlərindən biridir.

Fərmanın diqqətçəkən xüsusiyyətlərindən biri də onun yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinə şamil edilməsidir. Bu isə təsadüfi deyil. Çünki böyük şirkətlər, adətən, kifayət qədər maliyyə imkanlarına və logistika resurslarına malik olur. Kiçik müəssisələr isə xarici bazarlara çıxarkən əlavə xərclər səbəbindən daha çox çətinliklə üzləşir. Dövlət məhz bu kateqoriyaya aid sahibkarları dəstəkləməklə yeni ixracatçıların formalaşmasına şərait yaradır.

Ekspertlər qeyd edirlər ki, bu siyasət nəticəsində ixracatçıların sayı getdikcə artacaq, regionlarda fəaliyyət göstərən müəssisələrin xarici bazarlara çıxışı genişlənəcək, kənd təsərrüfatı və emal sənayesi məhsullarının satış imkanları çoxalacaq, yeni iş yerlərinin yaradılması sürətlənəcək. Eyni zamanda, Azərbaycan mənşəli məhsulların təşviqi daha çox diqqət mərkəzində saxlanılacaq. Başqa sözlə, yeni fərmana əsaslanılaraq kompensasiya yalnız Azərbaycan Respublikası mənşəli məhsullara tətbiq ediləcək və bu status mənşə sertifikatı əsasında müəyyənləşdiriləcək. Digər tərəfdən, belə bir tələb daxili istehsalın təşviqi baxımından da xüsusi əhəmiyyət daşıyacaq. Belə ki, xaricdən gətirilərək sadəcə təkrar ixraca yönəldilən məhsullar deyil, məhz respublikada istehsal edilən mallar da dövlət dəstəyi ilə əhatə olunacaq. Beləliklə, bu cür yanaşma yerli istehsalın inkişafını stimullaşdıracaq, əlavə dəyər yaradan müəssisələri dəstəkləyəcək, sənayeləşmə siyasətinin səmərəliliyini artıracaq və ixracın milli iqtisadiyyata təsirini gücləndirəcək.

### Büdcənin strateji investisiyası

İlk baxışda kompensasiya mexanizmi dövlət büdcəsi üçün əlavə yük kimi nəzərə çarpa bilər. Əslində isə bu, gələcək iqtisadi artıma yönəlmiş strateji investisiyadır. Beynəlxalq təcrübə də göstərir ki, ixracın genişlənməsi nəticəsində vergi daxilolmaları artır, yeni istehsal müəssisələri yaradılır, məşğulluq yüksəlir, valyuta gəlirləri çoxalır və tədiyə balansı güclənir.

Fərmanın mühüm müddəalarından biri də gömrük nəzarəti, gömrük müşayiəti və malların saxlanmasına görə tətbiq olunan yığımların artırılmasının qadağan edilməsidir. Bu norma sahibkarlar üçün mühüm təminat yaradır. Belə ki, dövlət bir tərəfdən kompensasiya mexanizmi tətbiq edir, digər tərəfdən isə həmin dəstəyin yeni rüsum və yığımların artırılması ilə neytrallaşdırılmasının qarşısını alır. Bu, biznes mühitinin proqnozlaşdırıla bilməsi və sahibkarların uzunmüddətli planlaşdırma aparması baxımından mühüm əhəmiyyət daşıyır.

Sözügedən sənədə əsasən, kompensasiyanın məbləğinin məhsulun növündən və ixraca yönəldilən ölkədən asılı olaraq müəyyən ediləcəyi nəzərdə tutulur. Bu yanaşma yeni bazarlara çıxış imkanlarının genişlənəcəyinə, başqa sözlə, dövlətə strateji bazarlara çıxışı daha fəal şəkildə təşviq etməyə imkan verir. Məsələn, uzaq bazarlara ixrac zamanı daha yüksək dəstək tətbiq edilir, yüksək əlavə dəyər yaradan məhsullara üstünlük verilir, yeni ixrac istiqamətləri müəyyənləşdirilir. Bu isə Azərbaycanın ənənəvi bazarlardan kənara çıxaraq Avropa, Yaxın Şərq, Asiya və Afrikada mövqelərini gücləndirməsinə şərait yaradır.

Fərmanın tətbiq müddətinin 2031-ci ilin sonunadək nəzərdə tutulması sahibkarlar üçün mühüm üstünlükdür. Çünki uzunmüddətli dövlət dəstəyi biznes subyektlərinə investisiya qərarlarını daha inamla qəbul etməyə, istehsal güclərini artırmağa, yeni ixrac müqavilələri bağlamağa, beynəlxalq bazarlarda möhkəmlənməyə imkan verir. Bu baxımdan sənəd qısamüddətli təşviq proqramı deyil, orta və uzunmüddətli ixrac strategiyasının tərkib hissəsidir.

Ümumilikdə, dövlət başçısının imzaladığı bu fərman qeyri-neft ixracının artırılması istiqamətində həyata keçirilən siyasətin məntiqi davamıdır. Sənəd "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində müəyyənləşdirilən rəqabətqabiliyyətli iqtisadiyyat və dayanıqlı artım məqsədlərinə xidmət edir.

Fərman ixracatçıların maliyyə yükünü azaldır, mikro, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırır, yerli istehsalın rəqabət qabiliyyətini artırır və ölkənin qeyri-neft gəlirlərinin genişlənməsinə yeni imkanlar yaradır. Bütün bunlar isə onu göstərir ki, Azərbaycan iqtisadiyyatında neftdən sonrakı inkişaf modelinin formalaşdırılması istiqamətində atılan addımlar ardıcıl xarakter daşıyır və yeni sənəd həmin strategiyanın mühüm həlqələrindən biridir. Beləliklə, bu fərman yaxın illərdə ölkənin ixrac coğrafiyasının genişlənməsi, qeyri-neft sektorunun güclənməsi və Azərbaycanın qlobal ticarət sistemində mövqelərinin daha da möhkəmlənməsi əminliyi yaradır.

### İxracda yeni mərhələ

Dövlət başçısının qeyri-neft məhsullarının ixracının təşviqi məqsədilə imzaladığı yeni fərman ixracatçılar üçün mühüm dəstək mexanizminin formalaşdırılmasına zəmin yaradır. Sənədə əsasən, Azərbaycan mənşəli qeyri-neft məhsullarını xarici bazarlara çıxaran mikro, kiçik və orta sahibkarlıq subyektləri ixrac zamanı ödədikləri gömrük rəsmiləşdirilməsi yığımlarının müəyyən hissəsini dövlət tərəfindən geri almaq imkanı əldə edəcəklər.

Bununla belə, fərman hələlik dəstəyin konkret parametrlərini müəyyənləşdirmir. Hansı məhsulların bu mexanizmdən yararlanacağı, hansı ölkələrə ixrac zamanı kompensasiyanın tətbiq ediləcəyi, bir gömrük bəyannaməsi üzrə maksimum dəstək məbləğinin nə qədər olacağı, eləcə də müraciət və ödəniş prosedurlarının necə təşkil ediləcəyi növbəti mərhələdə müəyyənləşdiriləcək.

Bu məqsədlə aidiyyəti dövlət qurumlarına üç ay müddətində müvafiq təkliflərin hazırlanması tapşırılıb. Başqa sözlə, fərman ixracın stimullaşdırılması üçün yeni maliyyə alətinin hüquqi bazasını yaradır və onun praktiki mexanizmlərinin işlənib hazırlanmasını nəzərdə tutur.

Qərarın əsas hədəfi qeyri-neft ixracının genişləndirilməsi, yerli istehsalçıların beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin artırılması və ixrac xərclərinin azaldılmasıdır. Bu baxımdan sənəd ölkənin ixracyönümlü iqtisadi siyasətinin mühüm elementlərindən biri kimi dəyərləndirilə bilər.

Lakin mexanizmin hazırlanması zamanı bir sıra vacib məsələlərin nəzərə alınması onun səmərəliliyini daha da artırar. Bunun üçün, ilk növbədə, dövlət dəstəyi bütün qeyri-neft məhsullarını əhatə etməməlidir. Prioritetlər müəyyən edilərkən məhsulların strateji əhəmiyyəti, daxili bazarın təminatındakı rolu və ixrac potensialı kompleks şəkildə qiymətləndirilməlidir. Əgər hər hansı məhsulun ölkə daxilində istifadəsi iqtisadi və sosial baxımdan ixracından daha çox fayda yaradırsa, həmin məhsulun xaricə satışının əlavə təşviqinə ehtiyac olmaya bilər. Buna görə də dəstək daha çox yüksək əlavə dəyər yaradan və milli iqtisadi maraqlara uyğun gələn məhsullara yönəldilməlidir.

Bununla yanaşı, ixrac istiqamətlərinin müəyyənləşdirilməsi də zəruri şərtdir. Dəstəyin tətbiq ediləcəyi ölkələr və ya ölkə qrupları seçilərkən qısamüddətli deyil, uzunmüddətli yanaşma üstün tutulmalıdır. Normativ-hüquqi bazanın tez-tez yenilənməsi arzuedilən olmadığından, gələcəkdə perspektiv vəd edən bazarların da əvvəlcədən nəzərə alınması məqsədəuyğun görünür. Eyni zamanda, dövlət vəsaitinin bölüşdürülməsi mexanizmi də tam şəffaf və aydın meyarlar əsasında qurulmalıdır. Sahibkarlar hansı şərtlər daxilində dəstək ala biləcəklərini əvvəlcədən bilməli, qərarların qəbulunda bərabər və ədalətli yanaşmanın gerçəkləşdirilməsini diqqət mərkəzində saxlamalıdırlar.

Təbii ki, burada əsas məsələlərdən biri də müraciət prosedurlarının sadələşdirilməsi ilə bağlıdır. Xüsusilə mikro, kiçik və orta sahibkarların əlavə sənədləşmə və bürokratik çətinliklərlə üzləşməməsi üçün proses maksimum elektronlaşdırılmalı və operativ şəkildə təşkil edilməlidir.

Nəhayət, ayrılan dövlət vəsaitinin real nəticələrinin qiymətləndirilməsi üçün konkret performans göstəriciləri müəyyənləşdirilməlidir. Dəstəyin qeyri-neft ixracının həcminə, yeni bazarların əldə olunmasına, sahibkarların xərclərinin azalmasına və ümumilikdə ixrac fəaliyyətinin genişlənməsinə təsiri mütəmadi şəkildə təhlil edilməlidir. Bu, proqramın səmərəliliyini ölçməyə və zərurət yarandıqda mexanizmdə təkmilləşdirmələr aparmağa imkan verəcək.

Bütün bu amillər nəzərə alınarsa, yeni dəstək mexanizmi həm sahibkarların fəaliyyətinin genişlənməsinə, həm də Azərbaycanın qeyri-neft ixracının dayanıqlı inkişafına əhəmiyyətli töhfə verə bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

# Əmanətlərin Sığortalanması Fondu və ABŞ Maliyyə Nazirliyinin Texniki Yardım Ofisi arasında işgüzar görüşlər keçirilib

**Maliyyə təhlükəsizliyi və institusional dayanıqlılıq sahəsində beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məqsədilə Amerika Birləşmiş Ştatlarının Maliyyə Nazirliyinin Texniki Yardım Ofisinin (U.S. Department of the Treasury – Office of Technical Assistance / OTA) nümayəndə heyətinin Azərbaycan səfəri çərçivəsində Əmanətlərin Sığortalanması Fondu ilə bir sıra işgüzar görüşləri keçirilib.**



İkitərəfli müzakirələr zamanı əmanətlərin sığortalanması sisteminin institusional fəaliyyəti, maliyyə sabitliyinin qorunmasına xidmət edən mexanizmlər, sığorta hadisələri zamanı tətbiq edilən koordinasiya yanaşmaları, hüquqi çərçivə, risk əsaslı idarəetmə prinsipləri və rəqəmsal transformasiya istiqamətində həyata keçirilən tədbirlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Görüş çərçivəsində fondun aidiyyəti struktur bölmələri tərəfindən informasiya texnologiyaları infrastrukturu, əmanətçilərin reyestri sistemləri, kompensasiyaların hesablanması və ödənişi mexanizmləri, fəaliyyətin fasiləsizliyinin təmin olunması üzrə ehtiyat həlləri, məlumatların qorunması və sistem dayanıqlılığı istiqamətində tətbiq olunan texniki imkanlara dair təqdimatlar nümayiş etdirilib. Bununla yanaşı, rəqəmsal maliyyə alətləri, elektron pul və rəqəmsal aktivlərin hüquqi tənzimlənməsi, habelə dövlət qurumları arasında məlumat mübadiləsi və institusional koordinasiya mexanizmləri üzrə beynəlxalq təcrübələr nəzərdən keçirilib.



Müzakirələr zamanı böhran şəraitində operativ qərarvermə, ictimai kommunikasiyanın vahid yanaşma əsasında təşkili və əmanətçilərin hüquqlarının qorunmasının əhəmiyyəti xüsusi qeyd olunub. Eyni zamanda, qarşılıqlı texniki əməkdaşlıq, peşəkar bilik və təcrübə mübadiləsi, eləcə də institusional potensialın gücləndirilməsi istiqamətində gələcək əməkdaşlıq imkanları dəyərləndirilib.

Əmanətlərin Sığortalanması Fondu tərəfindən beynəlxalq tərəfdaşlarla əlaqələrin genişləndirilməsi, qabaqcıl təcrübələrin öyrənilməsi, habelə maliyyə təhlükəsizliyi üzrə müasir idarəetmə mexanizmlərinin tətbiqi istiqamətində fəaliyyətlərin bundan sonra da davam etdirilməsi nəzərdə tutulub.




***Qabil YUSİFOĞLU***
***XQ***

# UNESCO ilə əməkdaşlıq müzakirəsi

**Parisdə Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli UNESCO Baş direktorunun mədəniyyət məsələləri üzrə müavini Nayef H.Al-Fayez ilə görüşüb.**



Söhbət zamanı mədəni irsin qorunması, muzey işi, yaradıcı sənayelər, mədəni diplomatiya və mədəniyyət sahəsində beynəlxalq layihələr üzrə əməkdaşlıq imkanları nəzərdən keçirilib, UNESCO-nun SECURE layihəsi çərçivəsində perspektiv əməkdaşlıq istiqamətləri və bu proqramın mədəni irsin qorunması sahəsində tətbiq oluna biləcək imkanları müzakirə edilib.

Tərəflər UNESCO ilə Azərbaycan arasında mədəniyyət sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi, birgə layihələrin həyata keçirilməsi, peşəkar mübadilə proqramlarının genişləndirilməsi və innovativ beynəlxalq təşəbbüslərin təşviqi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığın inkişaf etdirilməsinin, eləcə də mədəniyyətin dayanıqlı inkişaf və beynəlxalq həmrəyliyin möhkəmləndirilməsində rolunun əhəmiyyəti vurğulanıb.

***XQ***

# Milli taleyə qarışan ömür

*(Bu yazı 12 il əvvəl Hidayətin 70 yaşına yazılmışdı)*

**“Bakı meydanlarında şair heykəllərin boynu bükülü, üzlərinə tariximin rəngi çəkilib”. Çoxdan yazdığım “Şair heykəlləri” adlı şeirin bu misraları məni heyrətləndirən bir müşahidədən doğulmuşdu. Gerçəkdən də, Bakıdakı şair heykəlləri – Nizamidən, Nəsimidən üzü bəri, hamısı böyük kədər, dərd abidəsi kimi yaradılıb. Heykəltəraşlar şairlərimizin obrazlarını doğru olaraq belə görüblər. Başqa cür onlar özlərinə bənzəməzdilər...**



Hansının kitabını açırsan, misralardan qəm süzülür. Dünyanın nizamsızlığının, öz xalqının acı taleyinin, müharibələrin, ədalətsizliyin, cəhalətin, ümidsizliyin, itirilmiş dəyərlərin, sərvətə qurban gedən sevgilərin, ayrılıqların bitib-tükənməz acısı, qəmi... Çarə sözə qalıb. Bütün dərdləri ni sözə yükləyiblər. Onlar üçün – “öləni, itəni, vətən əldən çıxanda vətəni” əvəz edən şeir olub.

Azərbaycanın görkəmli qələm ustalarından biri, görkəmli şair, dramaturq, nasir, publisist, ictimai-siyasi xadim kimi yaxşı tanınan və sevilən gənclik dostum Hidayət yetmişi haqlayıb, həyatın çox sınaqlarından keçib, sevinc də görüb, dərd də; ancaq ilk tanışlığımızda gözlərinin dərinliyində və sözündə gördüyüm kədər heç vaxt silinib getməyib. Mənə elə gəlir ki, bizi bağlayan da taleyin və kəndlərimizin üzümüzə həkk elədiyi o silinməz ağrı-acı idi. Zəngəzurdan və Yardımlıdan Bakıya gətirdiyimiz ən “etibarlı”, ən “vəfalı” yoldaş da elə qəm yükü idi və bu günə qədər bizi tərk etməyib.

Zəngəzur, Mığrı (və ya Meğri) tarixin xatırlamadığı çağlardan bəri tərtəmiz türk yurdu, boyda-buxunda Hidayətə bənzəyən kişilərin vətəni, ötən əsrin 20-ci illərində hətta xəyanətkar bolşevik siyasətçi və tarixçilərin də “qeydsiz-şərtsiz Azərbaycan torpağı” olduğunu etiraf etdikləri bu ulu bölgəmiz əlimizdən alınandan, yüzlərlə kəndi yandırılandan, on minlərlə türk əhalisi qətl ediləndən sonra orda möcüzəylə köçdən qopub qalanların taleyi, aqibəti, ovqatı başqa necə ola bilərdi? Ötən əsrin 30-cu, 40-cı illərində Zəngəzurun türk-azəri əhalisi Səməndər quşu kimi öz külündən yenidən doğulurdu. Erməni vəhşiliklərinin şahidi olmamış yeni nəsil yetişirdi. Yetişirdi ki, yeni faciələr yaşayıb, yeni vəhşiliklər görüb, Zəngəzuru yenidən tərk etsinlər və bu dəfə izləri-tozları da silinsin ordan, külləri göyə sovrulsun.

Hidayət bütöv vətənin nəğməkarıdır, lakin Zəngəzur öz acı taleyi ilə həmişə onun oxuduğu nəğmələrin şah bəndidir:

***Burda min illərdir yaşayır ellər,***
***Tarixin alınmaz şöhrət yoludur.***
***Ən zərif nəğmələr, ən şirin dillər,***
***Ən təmiz məhəbbət zəngəzurludur.***

Hidayət uşaqlığından bu acı həqiqətləri bilən, ata-babalarının itən dünyasının ağrıları içində böyümüş və bütün ömrü boyu bu ağrını ürəyində yaşatmış bir adamdır. Bakıya gələndə Zəngəzuru gətirirdi və yaşadırdı ürəyində, Ermənistan deyilən qədim yurdumuza qayıdanda Azərbaycanı... Belə ağır yüklərə, sonralar yaşadığı dözülməz oğul itkisinə baxmayaraq, belə sağlam, güclü, ruhu qanadlı, əli işdən soyumamış gəlib 70-ə çatıbsa, qəhrəmandır və deməli, hələ uzun yaşayacaq. Ona əsas arzularımdan biri də budur.

Hər ömrün sonu var, amma söz də, sözün müəllifi də ölümsüzdür. O, şeirlərinin birində özünü “çiçəkli, meşəli, qayalı Zəngəzur torpağı” sayır. Bu torpaq əbədi olduğu kimi, ona həsr edilən şeirləri də əbədidir. Hidayət başqa bir dövlətə bağlanmış doğma torpaqlarımızı həmişəlik itirməyin əlamətlərini gəncliyindən hiss edir və Zəngəzuru bütün gözəllikləri, adət-ənənələri, unudulmaz insanları, acılı-şirinli xatirələri, ona yaşatdığı ehtiyacları, Bakı–Təbriz sevgisi ilə, yaralarını sağaldaraq əvvəlki şöhrəti və gücünə qovuşmaq arzusu ilə şeirə köçürməyə çalışırdı.

Azərbaycan Dövlət Universitetinin birinci kursunda oxuduğumuz, yataqxanada bir yerdə qaldığımız günləri, uşaqlıq xatirələrinə və Azərbaycanın gələcəyinə köklənmiş söhbətlərimizi xatırlayıram. Yeni yazdığımız şeirləri isti-isti bir-birimizə oxuyardıq. Hidayət yeni yazılarını indiyə qədər dəyişilməmiş son dərəcə səliqəli xətlə iri bir dəftərə yazardı. O dəftərdə Arazı, Mığrısı, Aldərəsi, Maralzəmisi, Xəllərgə yaylağı, Ələngəz dağı, “başqa cür çıxan” günəşi, saya gəlməyən gözəllikləri ilə sirli bir Zəngəzur dünyası vardı. Sonra Hidayət qiyabi fakültəyə keçib Ermənistana qayıtdı. Qayıtdı ki, kənddəki evi sahibsiz qalmasın, Ermənistandakı Azərbaycan-Türk mühitini öz uca boyuyla bir az da ucaltsın, məktəb direktoru olsun, Azərbaycanca çıxan respublika qəzetinə yeni bir ruh qatsın, Cəfər Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrının direktoru kimi o sənət ocağını yaşatsın, bağlanmağa qoymasın, Bakıdan oralara yolu düşən ziyalıların üz tutduğu ünvan olsun, Ermənistanın Əməkdar mədəniyyət xadimi rütbəsinə yüksəlməklə İrəvanın qədim türk mədəniyyəti havasını canlandırsın, erməni ziyalılarını haqqında hörmətlə danışmağa vadar eləsin, Ermənistan Yazıçılar İttifaqında Azərbaycan bölməsinə başçılıq etsin, orda Azərbaycan türkcəsində kitablar buraxsın, İrəvan Pedaqoji İnstitutunun Azərbaycan fakültəsində dərs desin və s. Həmin illərin bütün mürəkkəb, acılı-şirinli yaşantıları Hidayətin şeirində, nəsr və publisistikasında, bədii məktublarında əksini tapmışdır. Bu əsərlərin hər biri ayrıca araşdırma mövzusudur. Hidayət əyani təhsildən ayrıldı, ancaq bizdən ayrılmadı. Dostluğumuz və yaradıcılıq əlaqələrimiz davam etdi. İrəvanda yaşaya-yaşaya Azərbaycanda tanındı, nəşr edildi və sevildi...

Onun evi İrəvanda bir Azərbaycan Mədəniyyət Mərkəziydi, Azərbaycan Ocağıydı. O, qədim türk-oğuz torpaqlarının keçmişi ilə bu günü arasında canlı bir körpüydü. Sonra ildən-ilə artan erməni şovinizminə, erməni mətbuatında və ictimai həyatında baş alıb gedən antitürk təbliğatı və düşmənçiliyinə dözmədi, Bakıya köçdü. Burda da həmkar olduq. Kitab mədəniyyətimizi inkişaf etdirmək, qayğılarımızı bölüşə-bölüşə o “Gənclik”, mən “Yazıçı” nəşriyyatında baş redaktor işlədik. Azərbaycan müstəqillik qazanandan sonra o, Prezident Aparatında dövlət müşaviri oldu, mən mətbuat və informasiya naziri. Ancaq universitet yataqxanasında bir otaqda qaldığımız günlərin səmimiyyəti heç azalmadı.

Hidayətin ədəbiyyatımız qarşısında xidmətləri çoxdur. Ancaq bir xidməti də var ki, xüsusi qiymətlənməlidir. Bu da şair ilhamı, istedadı ilə, ictimai-siyasi xadim, dövlət məmuru obrazının mükəmməl şəkildə bir-birini tamamlamasıdır. Beləlləri o qədər də çox deyil. Bu məsələdə taleyimizin oxşarlığından bunun nə demək olduğunu yaxşı bilirəm. Şair hiss adamı olmaqla yanaşı, yüksək intellekt və mükəmməl bilik sahibi, yaxşı təşkilatçı, dövlət xadimi, bacarıqlı diplomat, ən mürəkkəb şəraitlərdə, ən yüksək uluslararası toplantılarda öz xalqının təmsilçisi olmağı, ən yüksək kürsülərdən millətinin sözünü deməyi bacarmalıdır. Tarixdə buna aid misallar çoxdur. Bizdə isə belə bir yanlış təsəvvür var ki, ədəbiyyat adamı ciddi siyasətlə məşğul ola bilməz, yaxud peşəkar siyasətçi ədəbiyyatdan tam uzaqdır.

Çətin uşaqlıq illəri, atasızlıq, hər gün üzləşdiyi yad, soyuq mühit onu erkən böyütmüşdü, elə gənc vaxtı da ciddiydi. Öz işinə münasibətdə də, dostluqda da.

Təsadüfi deyil ki, o, milli məsələlər üzrə dövlət müşaviri və ya Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri olanda da bu məsul vəzifələrin öhdəsindən bacarıqla gəldi; ucaldıqca xalqa daha da yaxınlaşdı, müstəqil dövlətin əsl vicdanlı məmurluğunun, milli ziyalılığın nümunəsini göstərdi.

Bu yazını yazarkən Hidayətin mənə bağışladığı orijinal əsərləri və tərcümələrdən ibarət on cildliyini bir də gözdən keçirtdim. Bu cildləri diqqətlə oxumaq bir yana, sadəcə vərəqləmək bəs edir ki, qələm qardaşımın necə çoxcəhətli, məhsuldar və şərəfli bir yaradıcılıq yolu keçdiyini görəsən. Bu baxımdan onun həyat və fəaliyyətinə işıq salan, zəngin yaradıcılığının salnaməsi olan və “Azərbaycanın görkəmli şəxsiyyətləri” silsiləsindən buraxılmış “Biblioqrafiyası” da diqqəti cəlb edir. Çünki burda Azərbaycanın və qonşu ölkələrin Hidayəti tanıyan bir sıra görkəmli ədəbiyyat, elm, sənət adamlarının, dövlət xadimlərinin onun haqqında böyük sevgi və ehtiramla yazılmış fikirlərindən nümunələr də yer alıb.

Cildlər də, biblioqrafiya da şair, sənətkar taleyi ilə vətəndaş və dövlət xadimi obrazının bir-birini necə tamamladığını göstərir. Şübhəsiz Hidayət ilk növbədə şairdir. Haqqında yazanların da çoxu etiraf edir ki, ona olan sayğıları şeirlərindən başlanıb.

Bizim Hidayətlə dostluğumuzun təməlində də onun çətin uşaqlıq həyatı, Mığrı, ana, ilk sevgi, doğulduğu yerlərin gözəllikləri haqqında yazdığı və tələbə yataqxanasının balaca otağında dinlədiyim gənclik şeirlərindəki dərin səmimiyyət və gələcəyə ümid olmuşdu. Bu şeirlərdə bizim nəsildən olan kənd uşaqlarının ümumi taleyi vardı:

***Soyuqda, şaxtada, boranda, qarda***
***Bu köynək qış kürküm, pencəyim oldu.***
***Əlimdə qan sızan o cadarlar da***
***Mahudlu, meşinli əlcəyim oldu.***

Zəngəzurda dağıdılmış, Yardımlıda müharibədən sonra qəsdən köçürülmüş kəndlərin faciəsi:

***Küləkli çöllərdə, qarlı havada***
***Kəsə cığırları gəzən tapılmaz.***
***Göz yaşları qalan isti yuvada***
***Təndirlər üşüyər, çörək yapılmaz.***

Yurdun xoşbəxtliyi yolunda çalışmaq arzusu:

***Təbrizimin harayına çatmasam,***
***Öz dərdimi el dərdinə qatmasam,***
***Beş zalımın biləyindən tutmasam,***
***Görən kim deyər ki, Hidayətəm mən?***

Doğma Mığrının bu gün artıq xəritədən silinmiş gözəl guşələri:

***Tağəmir – yaylağın, Xəllərdə dağın,***
***Aldərə zirvəsi, Kazım bulağın...***

Tanışlığımızın ilk günlərində yazdığı və şeir məclislərində oxuduğu “Qara pencək” şeirinin sadə və səmimi misraları uzun illər keçsə də, yaddaşımdadır.

Şeir anasının “o pencəkdə nə var ki, onun üçün əsirsən?” sualına cavab olaraq yazılmışdı:

***Axı mən necə deyim,***
***Quşbaşı qar yağanda***
***Bu qara pencəyi mən***
***Onun çiyninə salıb***
***Sağ-solunu kəsmişəm.***
***Üşüyərsən, deyərək***
***Bu pencəkdə mən onu***
***Guya, əzizləmişəm.***

Bəlli olur ki, o sevgidən yadigar qalan yalnız bu pencəkdir.

İllər keçdi, səsi də, sözü də, şeiri də, özü də möhkəmləndi. Akademik Yaşar Qarayevin müşahidə etdiyi kimi, “sadə, aydın, xəlqi dillə-üslubla, əsl səmimi, isti nəfəslə” yazdığı əsərləri ona oxucu sevgisi qazandırdı. “Arabası sınıq-salxaq yolçulara tay olmaram” misralarında işarə etdiyi kimi, “yerə-göyə sığmayan həyat eşqinin” ardınca yüksəldi. Akademik Tofiq Hacıyev demiş: “Şairlikdən ictimai, milli fəaliyyətə başlayan şair siyasi kürsülərə, dövlətçilik xidmətlərinə qədər yol gedir”.

Bu, Hidayətin ömür yolunun əsas cəhətidir.

Hidayətin şeirləri də, nəsr və publisistikası da onun öz taleyindən yaranmışdır, bu taleyi əks etdirir. Müəllif bütün əsərlərinin baş qəhrəmanıdır. Lakin bu baş qəhrəman millətinin bir parçası, böyük vətəndaş olduğuna görədir ki, bu əsərlər həm də bütövlükdə azərbaycanlıların, xüsusən Qərbi Azərbaycan türklərinin tale nəğməsi kimi səslənir.

Bu baxımdan onun “Burdan bir atlı keçdi” və “Orda – Zəngəzurda mənim ürəyimin məzarı qalıb” əsərləri gözəl bir xatirə, milli yaddaş kitabı olmaqla yanaşı yurdumuzun itirilmiş bir parçasının tarixini, coğrafiyasını, etnoqrafiyasını, insanlarının xarakterini, üzləşdikləri çətinlikləri ensiklopedik qapsamıyla seçilən son dərəcə dəyərli bir əsərdir; bədii publisistikamızın ən uğurlu nümunələrindəndir.

Şair dostumun bir çox məktubları da var ki, siyasi publisistikanın öz vətəndaşlıq borcunu necə yerinə yetirməli olduğuna örnək sayıla bilər. Bu əsərlər dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsində yazıçı sözünün necə mühüm rol oynadığını göstərir. Bu baxımdan onun oncildliyindən gürcüstanlı qələm dostu Cansuğ Çarkvianiyə məktubundan bir parçaya nəzər salmaq kifayətdir.

Hidayət yazır:

“Cansuğ, əziz dostum!

...Sözümün bu yerində Quramla 1994-cü il noyabr ayının sonlarında Tiflisdə, Yazıçılar Birliyində, onun soyuq otağında neçə saat çəkən isti söhbətimizi xatırlayıram. Qurama gileyləndim ki, bəzi gürcü müəllifləri mətbuatda, kitabda xalqlarımızı üz-üzə qoymağa cəhd edir, tarixi faktları saxtalaşdıraraq soydaşlarımızın guya gəlmə olduqlarını yazırlar. Quram çılğın halda “onlar gürcü deyillər, gürcü xalqının düşmənləridir!” – dedi. Həmişə təmkinli olan Quramın həyəcanı da təbii idi. Gürcülər içində gürcü soyadı daşıyan və gürcü adı altında gizlənən, lakin öz xislətini dəyişməyən xəyanətkar məlum qüvvələr var. Beləlləri ilk növbədə gürcülərin düşməni, təbii ki, Gürcü-Azərbaycan dostluğunun da qənimidirlər. Belə düşmənlər təəssüf ki, Azərbaycanda da yox deyildir, ölkənin, millətin halal çörəyini yeyə-yeyə, saf suyunu içə-içə dövlətinə, onun maraqlarına dönüklük eləyənlərə göz yummaq olmaz. Onları gərək Allah da bağışlamaya”.

O, yaradıcılığında olduğu kimi, tutduğu vəzifələrlə bağlı apardığı bütün işlərdə, siyasi kitablarında, müsahibə və çıxışlarında da Böyük vətəndaşdır. Bir vaxt Zəngəzur üçün söylədiyi nəğmələri o, sonra bütöv Azərbaycan üçün oxumuşdur.

Dövlət müstəqilliyini əldə etmək, müharibə şəraitində, belə mürəkkəb coğrafi-siyasi mövqedə, bu qədər çox düşmən arasında gənc dövləti qorumaq çətin işdir. İyirmi beş ildir qolunu çirməyib bu işi görənlərlə, öz gücünü milli gücə qoşanlarla yanaşı, kənarda dayanıb dodaq büzməkdən, qüsur axtarmaqdan başqa peşəsi olmayanları da görürük. Hidayət isə ilk gündən tərəddüd etmədən, əsil şair ilhamıyla çiynini bu ağır yükün altına verən və öz səngərini əzmlə qoruyan, milli dövlətinə xidmət göstərməkdən zövq alan şəxslərdən biri olub. “Bu gün vəzifə kürsüləri rahatlıq üçün deyil” söyləyərək gecə-gündüz çalışıb. Buna görə də xalqının və dövlətinin yanında üzüağ və başıucadır. Keçdiyi yaradıcılıq yolu, ictimai mübarizə yolu həmişə adına yaraşıb. Həmişə düz yolda olub.

Bu yol Azərbaycanın böyük gələcəyinə və bütövlüyünə gedən yoldur...

**Son. Əlvida, əziz dost! Yaxşı ki bu məqaləni sağlığında sən də oxumuşdun.**

***Sabir RÜSTƏMXANLI,***
***Xalq şairi***

*Tarixdən gələn səslər*

# İspan zabitin xatirələrində Qarabağ xanlığının son dövrü

**1818-ci ildə İspaniyadan sürgün edilən Xuan Van Qalen (1788-1864) 18 ay çar ordusunda xidmətdə olmuşdur. O, həmin vaxt Qafqazın çar Rusiyasına birləşdirilməsi qəsbkarlığında da iştirak etmişdir. 1820-ci ilin may ayında isə ispan zabit Azərbaycanda olmuş, Qarabağ xanı Mehdiqulu xan və Şirvan xanı Mustafa xanla görüşmüşdür. O, xatirələrində ermənilərin Nuxaya köçürülməsindən, Şəki Xan sarayından, Gəncədən, Şirvandan, Şahbulaq qalasından, Şuşadan geniş söhbət açmışdır. Don Xuanın sürgün müddətində qələmə aldığı xatirələri 1828-ci ildə Nyu-Yorkda ingilis dilində nəşr olunmuşdur.**



Əsərin 34-cü fəslində Van Qalen Qarabağ səfərindən söhbət açır. Müəllif qeyd edir ki, xanlığın məhsuldar torpaqları, səfalı təbiəti, şəfalı havası var. Şuşada sərraclıq sənətinin yüksək səviyyədə inkişaf etdiyini vurğulayıb: “Asiyanın heç bir şəhərində Şuşadakı kimi zövqlü və möhkəm yəhər hazırlanmır. Bu mahir sənətkar əl işinin ən maraqlı nümunəsi təkcə yəhərin naxışlı olması deyil, həm də üzəngi və yüyənin də onunla birlikdə hazırlanmasıdır”.

Qarabağ xanı Mehdiqulu xanla görüşən Van Qalen onu belə təsvir edib: “Xan 45-50 yaşlarında, uzunboy, bütün tatarlar kimi qarayanız idi – qəhvəyi gözləri və saqqalı vardı. Amma gəncliyində farslarla döyüşlərdən birində burnunun yarısını itirdiyi üçün görünüşcə elə də baxımlı deyildi. Biz Şuşadan keçdiyimiz vaxt o, Şahbulaq yolunun yaxınlığındakı təpələrdən birinin üzərində, çox xoş bir mövqedə yerləşən qonşu qalalardan birində peyğəmbərin sadiq bir ardıcılı kimi yaşayırdı”.

Don Xuan xatirələrində Qarabağ xanının Avropasayağı süfrə açmasından Şuşanın yeniliklərə açıq, inkişaf etmiş şəhər olmasının sübutu kimi bəhs edib: “Zala qayıdanda biz Avropa üslubunda yemək stolu gördük – salfet, bıçaq, çəngəl, stəkan, su sürahiləri və s.”.

Əsərdə yerli əhəmiyyətli tarix-memarlıq abidəsi olan Şahbulaq qalası haqqında da maraqlı qeydlər var. “Şahbulaq daha yaxşı mühafizə məqsədilə səngər (torpaq bəndi) ilə əhatə olunmuş qədim bir qüllədən ibarətdir və ətraf ərazilərə hakim olan bir təpənin üzərində yerləşir. Onun bağı və postda saxlanılan atlar üçün kifayət qədər otu olan çəmənliyi vardı. Şahbulaqla Şuşa arasında yerləşən Əsgəranı bir qədər keçdikdən sonra qüllələrlə taclanmış dar bir dərəyə daxil olduq; burada dərənin yan tərəflərində hələ də orda-burda qırx–əlli tuaz (toise – Fransada 1,9 metr) hündürlüyündə olan qədim divarlar qalmışdı. Ətraf ərazilərin sıldırım relyefi səbəbindən yanından keçilməsi çətin olan bu divar, şübhəsiz ki, qədim dövrlərdən ölkənin daxili hissələrinə gedən yol üzərində bir sədd rolunu oynayırdı. Bu dar dərədən sonra yol, demək olar ki, keçilməz hala düşür və paytaxta qədər fasiləsiz bir yoxuş şəklində davam edir”.

Ümumiyyətlə, Van Qalenin xatirələri XIX əsrin əvvəllərində Qarabağın siyasi, sosial və mədəni mənzərəsini əks etdirən mühüm ilkin mənbələrdən biridir. Müəllifin bilavasitə müşahidələrə əsaslanan qeydləri Qarabağın təbii-coğrafi üstünlüklərini, şəhər mədəniyyətinin səviyyəsini və yerli idarəçilik ənənələrini aydın şəkildə nümayiş etdirir. Xüsusilə Şuşa, oradakı həyat tərzi, məişət elementləri haqqındakı məlumatlar şəhərin regionun inkişaf etmiş mədəni-siyasi mərkəzlərindən biri olduğunu təsdiqləyir.

Van Qalenin Qarabağ xanı Mehdiqulu xanla görüşü və onun təsviri xanlığın idarəçi elitasının xarici əlaqələrə və yeniliklərə açıq olduğunu təsdiq edir. Eyni zamanda, Şahbulaq qalası və Əsgəran–Şuşa yolu haqqında verilən məlumatlar Qarabağın hərbi-strateji əhəmiyyətini, müdafiə sistemlərinin qədimliyini və düşünülmüş şəkildə qurulduğunu göstərir.

***Zəminə RƏSULOVA,***
***Dövlət Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi***

# “Gənclik” ASC-nin 2025-ci il dekabrın 31-nə illik maliyyə hesabatı

| | |
|---|---|
| 2.1.1 Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi | “Gənclik” Açıq Səhmdar Cəmiyyəti, “Gənclik” ASC, (VÖEN 1500265291) qeydiyyat tarixi 01.06.2006, qeydiyyat №46. |
| 2.1.2 Emitentin hüquqi ünvanı və olduğu yer; | Bakı, Nərimanov rayonu, Olimpiya küçəsi 6. |
| 2.1.3 Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitentin digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları; | “Gənclik”Açıq Tipli Səhmdar Cəmiyyəti, “Gənclik” ATSC, qeydiyyat tarixi 24.04.1998, qeydiyyat № D-2658;<br>“Gənclik”Açıq Tipli Səhmdar Cəmiyyəti, “Gənclik” ATSC, qeydiyyat tarixi 19.02.1999, qeydiyyat № 46. |
| 2.1.4 Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adları; olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Olmayıb |
| 2.1.5 Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və quvvədə olma müddəti; | Olmayıb |
| 2.1.6 Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun adı; | Deyil |
| 2.1.7 Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | İdman xidmətinin göstərilməsi |
| 2.1.8 Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | Malik deyil |
| 2.1.9 Emitentin təklif etdiyi məhsullar və xidmətlər; | İdman xidməti |
| 2.1.10 Emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | İşçilərinin orta illik sayı 41 nəfər |
| 2.1.11 Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adları, soyadı, atasının adı | Müşahidə şurası:<br>Müşahidə şurasının sədri - Fərzəliyev İlham Rəfayıl oğlu;<br>Müşahidə şurasının üzvləri: Hacıyev Samir Ehtibar oğlu, Qəhrəmanov Süleyman Aslan oğlu<br>İcra orqanı: Direktor - Şaxhüseynov Əli Əziz oğlu |
| 2.1.12 Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının ayrı-ayrılıqda sayı | Fiziki - 62 nəfər |
| 2.1.13 Emitentin nizamnamə kapitalının on beş faizi və daha artıq həcmdə səsli səhmlərinə malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı; | Babayev Kamal Ələkbər oğlu – 41,81 % (288500)<br>Babayev Tahir Kamal oğlu – 20,85 % (143858)<br>Babayeva Rəna Kamal qızı – 15,00 % (103500)<br>Əsədulla Çingiz Rauf oğlu - 20,85 % (143918) |
| 2.1.14 Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı); | Hüquqi şəxslər yoxdur |
| 2.1.15 Emitentin səhmdarlarının hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: | Səhmdarların ümumi yığıncağı keçirilib. |
| 2.1.15.1 Yığıncağın keçirilmə tarixi və yeri (ünvan) | 12 iyun 2026-cı il, Bakı şəhəri, Olimpiya küçəsi 6 |
| 2.1.15.2 Ümumi yığıncağda qəbul edilmiş qərarlar | 2025-ci il üzrə maliyyə-təsərrüfat hesabatı |
| 2.1.16 Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir) | Dövriyədə olan qiymətli kağızlar - səhmlər |
| 2.1.16.1 İnvestisiya qiymətli kağızın növü və forması | Adi, adlı səhm, sənədsiz |
| 2.1.16.2 İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi | № 725/ A 21.05.98 |
| 2.1.16.3 İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri | 690092 1 manat |
| 2.1.16.4 İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri | 690092 |
| 2.1.16.5 Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir) | Dividendlər ödənilməyib, 2025-ci ilin yekunlarına görə zərər əldə olunub. |
| 2.1.16.6 Faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi | Olmayıb |
| 2.1.16.7 İnvestisiya qiymətli kağızlarının yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda) | Olmayıb |
| 2.1.17 Emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar | Olmayıb |
| 2.1.17.1 Əqdin məbləği | |
| 2.1.17.2 Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi | |
| 2.1.18 Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanmış əqdlər barədə məlumatlar: | Olmayıb |
| 2.1.18.1 Bağlanmış əqdin mahiyyəti, tarixi və məbləği; | |
| 2.1.18.2 Aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi; | |
| 2.1.19 İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi | 12 iyun 2026-cı il |
| 2.1.20 İllik hesabatın açıqlanma mənbəyi haqqında məlumat | “Xalq qəzeti” |

## Məcmu gəlir haqqında hesabat (xərclərin xüsusiyyətləri üzrə təsnifləşdirilmişdir)

| | 2025-ci il | 2024-cü il |
|---|---|---|
| Əməliyyat fəaliyyətindən gəlir | 515001.48 | 445979.02 |
| Digər əməliyyat gəlirləri | 238174.88 | 223135.27 |
| Digər gəlirlər | - | |
| Cəmi gəlirlər | 753176.36 | 669114.29 |
| Əməkhaqqı və işçilərlə bağlı digər ödənişlər | 476499.82 | 414189.84 |
| Mal-material ehtiyatlarının silinməsi | 161755.91 | 163755.10 |
| Əmlak və avadanlığın köhnəlməsi | 70116.80 | 76715.86 |
| Digər xərclər | 117248.81 | 128270.44 |
| **Xərclər** | 825621.34 | 782931.24 |
| Əməliyyat mənfəəti (zərəri) | -72444.98 | -113816.95 |
| Mənfəət vergisindən əvvəl mənfəət (zərər) | -72444.98 | -113816.95 |
| Mənfəət vergisi xərcləri | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | - | 1026.34 |
| İlin əvvəlinə kapital ehtiyatları | 49905484.17 | 49791667,24 |
| Yenidənqiymətləndirilmənin dəyəri | - | |
| Vergi məcəlləsilə istifadə edilməmiş və silinmiş güzəştə uyğun təxirə salınmış vergi | - | |
| İlin sonuna kapital ehtiyatları | 49977929.15 | 49905484.17 |

## Maliyyə vəziyyəti haqqında hesabat

| AKTİVLƏR | 2025-ci il | 2025-ci il | 2024-cü il | 2024-cü il |
|---|---|---|---|---|
| Uzunmüddətli aktivlər | | | | |
| Qeyri-maddi aktivlər | 2 056.33 | | 2 253.33 | |
| Torpaq, tikili və avadanlıqlar | 50686251.60 | | 50 746 618.94 | |
| Tikilməkdə olan torpaq, tikili və avadanlıq | 21 340.30 | | 21 340.30 | |
| Təxirə salınmış vergi aktivləri | 18 381.73 | | 24 784.24 | |
| Sair uzunmüddətli aktivlər. Gələcək dövrün xərcləri | 457 967.29 | | 400 011.30 | |
| CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | | 51 185997.45 | | 51195011.11 |
| Qısamüddətli aktivlər | | | | |
| Ehtiyatlar | 13 357.53 | | 18 214.85 | |
| Qısamüddətli debitor borcları | 15 442.01 | | 15 968.95 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 913.14 | | 13 116.01 | |
| Sair qısamüddətli aktivlər | | 40 712.68 | 0.00 | 47 229.81 |
| Sair qısamüddətli aktivlər. Gələcək dövrün xərcləri | 86 540.03 | | 65 648.51 | |
| CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | | 127 252.71 | | 112 948.32 |
| CƏMİ AKTİVLƏR | | 51 313250.16 | | 51307959.43 |
| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | | | |
| Kapital | | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 690 092.00 | | 690 092.00 | |
| Kapital ehtiyatları | 49977929.15 | | 49905484.17 | |
| Bölüşdürülməmiş mənfəət ( zərərlər) | -261 116.71 | | -188 671.73 | |
| CƏMİ KAPİTAL | | 50406.904.46 | | 50406904.46 |
| Uzunmüddətli öhdəliklər | | | | |
| Sair uzumüddətli öhdəliklər. Gələcək dövrün gəlirləri | 256 031.42 | | 256 031.42 | |
| Digər uzunmüddətli öhdəliklər | 635 844.44 | | 635 844.44 | |
| CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 891 875.86 | | 891 875.86 |
| Qısamüddətli öhdəliklər | | | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 9 929.05 | | 9 161.43 | |
| Qısamüddətli kreditor borcları | 4 540.79 | | 17.68 | |
| Sair qısamüddətli öhdəliklər. Gələcək dövrün gəlirləri | | | | |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 14 469.84 | | 9 179.11 |
| CƏMİ ÖHDƏLİKLƏR | | 906 345.70 | | 901 054.97 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | 51 313250.16 | | 51307959.43 |

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | 2024-cü il | 2025-ci il |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitləri** | | |
| Əməliyyat fəaliyyətindən mənfəət (zərər) | -113 816.95 | -72 444.90 |
| Üstəgəl əmlak və avadanlığın köhnəlməsi | 76 715.86 | 70 116.80 |
| Çıxılsın silinmiş istifadə edilməmiş Vergi Məcəllәsilə güzəştdən yaranmış təxirə salınmış vergi | | |
| **Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər** | | |
| Çıxılsın debitorların artması | 7 229.61 | 526.94 |
| Üstəgəl gələcək dövrün xərclərinin azalması | 10 827 | - |
| Üstəgəl ehtiyatların artması | 440.09 | 4 857.32 |
| Üstəgəl kreditorların artması | 39205.50 | 4 523.11 |
| Çıxılsın gələcək dövrün gəlirlərinin azalması | | |
| Əməliyyat fəaliyyətində pul vəsaitləri | 29772.73 | 8346.80 |
| Çıxılsın ödənilmiş vergi | -192.85 | - |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | 29 579.88 | 8 346.80 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| Uzunmüddətli aktivin əldə olunması | -110 718.12 | -9 549.67 |
| Çıxılsın tikilməkdə olan torpaq, tikili və avadanlıqların azalması | | |
| Uzunmüddətli aktivin əldə olunması ilə bağlı pul vəsaitlərinin xaric olması | | |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | -50 568.12 | - |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | |
| Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti | | |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin artması/azalması | -20988.25 | -1 202.87 |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin əvvəlinə | 34 104.26 | 13 116.01 |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin sonuna | 13 116.01 | 11 913.14 |

## Kapitalda dəyişikliklər haqqında hesabat

| | Ödənilmiş aksioner kapital | Kapital ehtiyatları | | |
|---|---|---|---|---|
| | | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
| 2025-ci il yanvarın 1-nə qalıq | 690 092,00 | 49 905 484.17 | -188 671.73 | 50 406 904.44 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 0.00 | 0.00 | -72 444.98 | 0.00 |
| Dividendlər | | | | |
| 2025-ci il dekabrın 31-nə | 690 092.00 | 49 977 929.15 | -261 116.71 | 50 406 904.44 |

## MÜSTƏQİL AUDİTORUN HESABATI

### “GƏNCLİK” ASC-nin RƏHBƏRLİYİNƏ

**Rəy**

1. Biz, “GƏNCLİK” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra şirkət adlandırılacaq) 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları şirkətin 2025-ci dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

2. Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-laar) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika məcəlləsinin” (İESBA məcəlləsi) tələblərinə uyğun olaraq şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi İESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

3. Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlərə aid ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

4. Rəhbərlik, maliyyə hesabtlarını İFRS-ə (beynalxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəbərlik şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

5. Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur.

*“F.N.Audit Servis” MMC-nin direktoru-*
*Fuad Əliyev*

**Bakı, Azərbaycan Respublikası, 25 may 2026-cı il**

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 105 (31074) 18 iyun 2026-cı il, cümə axşamı

# İDMAN

## Avropa çempionatında 5 medal




**Polşanın Belostok şəhərində keçirilmiş "Kyokuşin (KAY) Senşi Karate" üslubu üzrə Avropa çempionatında yüksək nəticələr əldə edən Azərbaycan Karate Federasiyasının milli komandası Vətənə qayıdıb.**

Heydər Əliyev Beynəlxalq Hava Limanında təşkil olunan qarşılanma mərasimində media nümayəndələri, idman ictimaiyyətinin təmsilçiləri, federasiya rəsmiləri, məşqçilər və idmançıların ailə üzvləri iştirak ediblər.

Avropa çempionatının yekunlarına əsasən Azərbaycan yığma komandası 2 qızıl, 2 gümüş və 1 bürünc olmaqla ümumilikdə 5 medal qazanaraq ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edib.

Gənclər arasında 80 kiloqram çəkidə mübarizə aparan Cəmil Kazımlı və 70 kiloqram çəkidə çıxış edən Vaqif Bəndəliyev fəxri kürsünün ən yüksək pilləsinə yüksələrək Avropa çempionu adına layiq görülüblər.

## Paralimpiyaçılarımızın 2 gümüş medalı




**Tunisin paytaxtında Paraatletika üzrə Beynəlxalq Qran-Pri davam edir.**

Paralimpiya çempionu paraatletimiz Oloxan Musayev nüvəitələmə yarışında F55 kateqoriyasında 11,64 metr nəticə göstərərək fəxri kürsünün ikinci pilləsinə yüksəlib və gümüş medal qazanıb.

Qeyd edək ki, daha əvvəl milli komandamızın digər üzvü Rüfət Rəfiyev də F36 kateqoriyasında gümüş medala sahib olub.

16-19 iyun tarixlərində keçirilən Tunis Qran-Prisində ölkəmizi nüvəitələmə növü üzrə Oloxan Musayev (F55), Elvin Astanov (F53), Samir Nəbiyev (F57), Ömər Bozbaxov (F57) və Rüfət Rəfiyev (F36) təmsil edirlər. Samir Nəbiyev və Ömər Bozbaxov nüvəitələmə ilə yanaşı, diskatma yarışlarında da qüvvələrini sınayacaqlar.

## 5-ci LANDAU Şahmat Festivalı




**Dünən yeniyetmələr arasında 5-ci LANDAU Şahmat Festivalının açılış mərasimi baş tutub.**

Festival Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə iyun ayının 21-dək LANDAU School-un "Sea Breeze" korpusunda keçiriləcək.

Açılış mərasimində Azərbaycan Şahmat Federasiyasının birinci vitse-prezidenti Faiq Həsənov, LANDAU School-un təsisçisi Timur Leznik və Azərbaycan Respublikasının elm və təhsil nazirinin müşaviri Rüstəm Ağayev çıxış ediblər. Çıxışlar zamanı şahmatın yeniyetmələrin intellektual inkişafında oynadığı mühüm rolu vurğulanıb, həmçinin festivalın gənc şahmatçıların potensialının üzə çıxarılması və bu sahəyə marağın artırılması baxımından əhəmiyyəti qeyd olunub.

Yarış 8, 10 və 12 yaşadək oğlan və qızlar arasında fərdi formatda keçirilir. Hər yaş kateqoriyası üzrə 1 oğlan və 1 qız qalib müəyyən ediləcək.

*Q.ƏLİYEV*
*XQ*

# "BURMA" QSC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

**(Aktivlərin və öhdəliklərin qısamüddətli və uzunmüddətli siniflərə bölünməsi qaydası)**

manatla

| Bölmələrin və maddələrin adları | Hesabat dövrü 2025-ci il üzrə | | Əvvəlki dövr 2024-cü il üzrə | |
|---|---|---|---|---|
| | (dövrün əvvəlinə) | (dövrün sonuna) | (dövrün əvvəlinə) | (dövrün sonuna) |
| Uzunmüddətli aktivlər | | | | |
| Qeyri-maddi aktivlər | | 13,500.00 | | |
| Binalar, tikililər və qurğular | 146,322.93 | 180,633.68 | 124,278.89 | 146,322.93 |
| Maşınlar və avadanlıqlar | 288,579.04 | 318,102.62 | 214,378.41 | 288,579.04 |
| Nəqliyyat vasitələri | 48,143.80 | 36,107.80 | 40,547.67 | 48,143.80 |
| Digər əsas vəsaitlər | 82,998.61 | 115,918.10 | 44,052.30 | 82,998.61 |
| Yüksək texnologiya məhsulu olan hesablama texnikası | 20,866.82 | 19,259.91 | - | 20,866.82 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **586,911.20** | **683,522.11** | **423,257.27** | **586,911.20** |
| Ehtiyatlar | 7,767,235.75 | 6,432,568.31 | 3,817,039.49 | 7,767,235.75 |
| Qısamüddətli debitor borcları | 2,296,496.53 | 2,099,489.73 | 1,486,549.58 | 2,296,496.53 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 56,082.37 | 66,074.57 | 143,411.90 | 56,082.37 |
| Sair qısamüddətli aktivlər | 793,063.47 | 747,322.99 | 412,248.77 | 793,063.47 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **10,912,878.12** | **9,345,455.60** | **5,859,249.74** | **10,912,878.12** |
| **CƏMİ AKTİVLƏR** | **11,499,789.32** | **10,028,977.71** | **6,282,507.01** | **11,499,789.32** |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 2,000.00 | 2,000.00 | 2,000.00 | 2,000.00 |
| Hesabat dövrünün xalis mənfəəti | 908,335.18 | 359,309.78 | 176,915.19 | 908,335.18 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 176,915.19 | 969,162.74 | - | 176,915.19 |
| Ödənilmiş dividend | (116,087.63) | (639,555.28) | - | (116,087.63) |
| **CƏMİ KAPİTAL** | | **971,162.74** | **690,917.25** | **178,915.19** |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 2,261,802.01 | 1,845,949.28 | 1,579,998.70 | 2,261,802.01 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 35,935.09 | 36,564.04 | - | 35,935.09 |
| Qısamüddətli kreditor borcları | 4,741,570.34 | 2,426,312.32 | 2,025,262.93 | 4,741,570.34 |
| Sair qısamüddətli öhdəliklər | 3,489,319.14 | 5,029,234.82 | 2,498,330.19 | 3,489,319.14 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **10,528,626.58** | **9,338,060.46** | **6,103,591.82** | **10,528,626.58** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **10,528,626.58** | **9,338,060.46** | **6,103,591.82** | **10,528,626.58** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **11,499,789.32** | **10,028,977.71** | **6,282,507.01** | **11,499,789.32** |

**Məcmu mənfəət və zərər haqqında hesabat (xərclərin xarakteri üzrə)**

| Göstəricilərin adları | Hesabat dövrü 2025-ci il üzrə | Əvvəlki dövr 2024-cü il üzrə |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 15,361,489.01 | 14,961,813.87 |
| İstifadə edilmiş material ehtiyatları | -11,870,406.43 | -10,678,202.85 |
| İşçi heyəti üzrə xərclər | -1,674,750.80 | -1,281,608.31 |
| Amortizasiya xərcləri, uzunmüddətli aktivlərin təqdim edilməsi və ləğv olunması üzrə xərclər | -103,311.24 | -126,911.48 |
| Digər əməliyyat xərcləri | -992,467.85 | -1,657,042.68 |
| Sair əməliyyat xərcləri | -8,879.01 | -3,222.23 |
| Əməliyyat mənfəəti (zərəri) | 711,673.68 | 1,214,826.32 |
| Maliyyə mənfəəti (zərəri) | -262,536.45 | -79,407.34 |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | 449,137.23 | 1,135,418.98 |
| Mənfəət vergisi | -89,827.45 | -227,083.80 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 359,309.78 | 908,335.18 |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| Ödənilmiş nizamnamə kapitalı | | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | 2,000.00 | 176,915.19 | 178,915.19 |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | **2,000.00** | **176,915.19** | **178,915.19** |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | 908,335.18 | 908,335.18 |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | -116,087.63 | -116,087.63 |
| **Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | **792,247.55** | **792,247.55** |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | **2,000.00** | **969,162.74** | **971,162.74** |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | **2,000.00** | **969,162.74** | **971,162.74** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | **359,309.78** | **359,309.78** |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | **-639,555.28** | **-639,555.28** |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **2,000.00** | **-280,245.50** | **-278,245.50** |
| **Hesabat dövrünün sonuna qalıq** | **2,000.00** | **688,917.25** | **690,917.25** |

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (dolayı metod)

| Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü 2025-ci il üzrə | Əvvəlki dövr 2024-cü il üzrə |
|---|---|---|
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 359,309.78 | 908,335.18 |
| amortizasiya xərcləri | 103,311.24 | 126,911.48 |
| Ehtiyatların azalması (artması) | 1,334,667.44 | -3,950,196.26 |
| əməliyyat debitor borclarının azalması (artması) | 197,006.80 | -809,946.95 |
| sair qısamüddətli aktivlərin azalması (artması) | 45,740.48 | -380,814.70 |
| vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalması) | 628.95 | 35,935.09 |
| Alınmış avansların artması (azalması) | 0.00 | 0.00 |
| əməliyyat kreditor borclarının artması (azalması) | -2,315,258.02 | 2,716,307.41 |
| Sair qısamüddətli öhdəliklərin artması (azalması) | 1,539,915.68 | 990,988.95 |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər artması (azalması) | -415,852.73 | 681,803.31 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **386,848.60** | **-715,923.15** |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | **-199,922.15** | **-290,565.41** |
| **Ödənilmiş dividendlər** | **-639,555.28** | **-116,087.63** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **9,992.19** | **-87,329.53** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | **56,082.37** | **143,411.90** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | **9,992.20** | **-87,329.53** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | **66,074.57** | **56,082.37** |

## Müstəqil Auditorun Hesabatı

### *"BURMA" Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyinə:*

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks etdirilir.

Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Müstəqillik**

Biz, mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi peşəkar mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) (MBESŞ Məcəlləsi) uyğun surətdə cəmiyyətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz, "MBEŞS" məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının BMHS-ə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik cəmiyyəti ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin auditin Beynəlxalq Audit Standartlarına uyğun aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər, fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər, fərdi və ya məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul edəcəkləri iqtisadi qərarlara təsir göstərmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi kimi biz audit zamanı peşəkar mülahizə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk.

# HAVA

## Aranda yağmursuz, dağlıq və dağətəyi rayonlarda yağış, dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 19-22°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 759 millimetr civə sütununa enəcək.**



**Nisbi rütubət gecə 70-75, gündüz 40-50 faiz təşkil edəcək.**

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin günün ikinci yarısında bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 19-22°, gündüz 31-36° isti, dağlarda gecə 10-15°, gündüz 20-25°, bəzi yerlərdə 27-30° isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*✓ 13 yanvar 2021-ci ildə Seyfullayeva Səidə Rəhimşah qızının adına verilmiş şəhid ailəsi üzvünün 000276 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

*✓ 1998-ci ildə Şəki şəhər 5 nömrəli tam orta məktəb tərəfindən Həşimova İlhamə Ağabala qızının adına verilmiş 9-cu sinifi bitirmək haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3178
SİFARİŞ 729
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00